"...öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü Allahdan bir mükafat olaraq, əlbəttə, örtəcək və onları (ağacları) altından çaylar axan cənnətlərə daxil edəcəyəm. Ən yaxşı mükafat Allah yanındadır!"

*(Qurani-Kərim, Ali-İmran, 195)*

## Ortaq türk televiziya kanalı yaradılır

Fevralın 23-24-də İstanbulda ortaq türk televiziya kanalının yaradılması üzrə əlaqələndirmə qrupunun ikinci iclası keçirilib. İclasda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv ölkələrin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin milli televiziya kanallarının və xəbər agentliklərinin nümayəndələri, eləcə də dövlət rəsmiləri iştirak ediblər. İclas iştirakçıları kanalın idarə edilmə forması, yayım dilləri, maliyyələşməsi, büdcəsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar. Üzv ölkələrin xəbər agentliklərinin təmsilçiləri Türk Şurası çərçivəsində əməkdaşlığın daha da gücləndirilməsi imkanlarını müzakirə ediblər.


www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 02 (283) / FEVRAL 2015-ci il


# İlham Əliyev Türkiyənin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Prezident İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlət başçısı xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-Türkiyə əlaqələrinin daha da genişləndirilməsi işinə yeni təkan verəcəyinə əminliyini bildirib. Türkiyəyə dövlət səfərinin və Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının uğurla keçdiyini məmnunluqla xatırlayan Prezident İlham Əliyev səfər zamanı birgə fəaliyyətlə bağlı gələcək planların müzakirəsinin önəmini qeyd edib. Türkiyə-Azərbaycan əlaqələrinin xalqlarımız və region, eləcə də dünya üçün çox böyük əhəmiyyətə malik olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında mövcud birliyin bölgədə sabitliyin təminatçısı olduğunu da vurğulayıb.

Mövlud Çavuşoğlu Türkiyə Respublikasının xarici işlər naziri kimi ilk rəsmi səfərini Azərbaycana etməsindən məmnunluğunu bildirib. O, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Əhməd Davudoğlunun salamlarını dövlətimizin başçısına çatdırıb. Mövlud Çavuşoğlu Prezident İlham Əliyevin Türkiyəyə dövlət səfərinin və Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmini qeyd edib.

Görüşdə Bakı-Tbilisi-Qars, TANAP layihələri, hərbi-texniki əməkdaşlıq və əlaqələrimizin digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Əhməd Davudoğlunun salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş edib.




səh. 3




**DAŞLAŞAN KƏDƏR**

səh. 9



**Din - əxlaqın sığortaçısı**

səh. 11



***Fərqli fikirlərə yanaşma tərzi***

səh. 13

**Nə üçün gələcəyimiz kitablardan asılıdır?**

səh. 15

# DQİDK-da Xocalı soyqırımının ildönümü anılıb

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Xocalı soyqırımının 23-cü ildönümü ilə bağlı anım mərasimi keçirilib.***



Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən komitə sədri Mübariz Qurbanlı Xocalı faciəsini insanlığa qarşı qətliam adlandırıb, bunun soyqırımı faktı olduğunu deyib. Bildirib ki, o vaxt erməni hərbi birləşmələri Xocalı şəhərini yerlə-yeksan edərək soyqırımı törədiblər. Bu soyqırımı həqiqətləri hazırda dünya ictimaiyyətinə çatdırılır. Son illər ölkəmizin bu yöndə gördüyü işlər, o cümlədən "Xocalıya ədalət" kampaniyası çərçivəsində aparılan işlər, Milli Məclisin, Xarici İşlər Nazirliyinin və diaspor təşkilatlarımızın fəaliyyəti təqdir olunmalıdır. Prezident İlham Əliyevin bütövlükdə Ermənistanın təcavüzünün aradan qaldırılması və informasiya müharibəsində Azərbaycanın mövqelərinin daha da möhkəmləndirilməsi üçün gördüyü işlər ciddi nəticələr verməkdədir.

M.Qurbanlı qeyd edib ki, Azərbaycan soyqırımı ilə əlaqədar dünyanın nüfuzlu təşkilatlarına müraciətlər ünvanlayıb. Hazırda gənclərimiz aksiyalar keçirirlər. Onlar dünya ölkələrinə, aparıcı təşkilatlara, o cümlədən ABŞ-ın müvafiq qurumlarına soyqırımı hadisələrini əks etdirən məlumatlar göndərirlər.

Ümumiyyətlə, ölkəmiz bu faciə ilə bağlı həqiqətləri dünyaya çatdırıb və hüquqi sənədlərin qəbul edilməsinə nail olub. Bu işlərin davam etməsi Azərbaycanın Ermənistan üzərində ideoloji qələbə qazanmasına və mühüm nəticələr əldə etməsinə gətirib çıxaracaq.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov Xocalı faciəsinə gedən yola diqqəti cəlb edib. Bildirib ki, Azərbaycan xalqı müstəqillik istəyirdi. Sovet imperiyası isə bunu heç cür qəbul edə bilmirdi. Odur ki, sovet ordusu 1990-cı il yanvarın 20-də əliyalın əhalinin üzərinə ağır artilleriya ilə hücum edib, insanları qətlə yetirib. Sumqayıt hadisələrində də qəddarlıqlar çox idi. Bu hadisələrlə sanki Xocalı faciəsinə hazırlıq görülürdü.

Qırğın üçün Xocalı da təsadüfən seçilməmişdi. Çünki bu şəhər mühüm strateji mövqeyə malik idi.

Anım tədbirində iştirak edən dini icmaların nümayəndələri də Xocalıda uşaqların, qadınların, yaşlıların amansızlıqla qətlə yetirildiyini söyləyib, bu faciəyə beynəlxalq miqyasda siyasi-hüquqi qiymət verilməsinin zəruriliyini vurğulayıblar.

# Dövlət Komitəsinin sədri Göyçayda bölgə vətəndaşlarını qəbul edib



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin həll olunması üçün müvafiq tədbirlər görürlər.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 24-də Göyçay rayonunda bölgə vətəndaşlarını qəbul edib. Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Göyçay, Ucar, Ağdaş, Mingəçevir və Yevlaxdan olan vətəndaşların müraciətləri dinlənilib. Müraciətlər əsasən dini icmaların qeydiyyatı, məscidlərin təmiri və təminatı, dini icmaların yaradılması və dövlət qeydiyyatına alınması ilə bağlı olub. Komitə sədri hər bir vətəndaşın müraciətinin diqqətlə araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həlli barədə müvafiq tapşırıqlar verib.

Qəbul zamanı qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

Qəbuldan sonra Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Göyçay şəhəri Mərkəzi məscidini və Əbülfəzl Abbas məscidini ziyarət edərək dini icma üzvləri ilə görüşüb.



# Şeyxülislam Dövlət Komitəsinin sədri ilə görüşüb



Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə fevralın 17-də Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilə görüşüb.

Qafqaz Müsəlmanları İdarəsində keçirilən görüşdə dövlət-din münasibətlərinin daha da təkmilləşdirilməsi, müsəlman dini icmaları ilə əlaqələrin səmərəliliyinin artırılması istiqamətində fikir mübadiləsi aparılıb.

Görüşdə ümumi maraq kəsb edən məsələlər ətrafında da faydalı müzakirələr aparılıb.

# Corciya ştatının qubernatoru Xocalı soyqırımı ilə bağlı bəyanat imzalayıb

ABŞ-ın Corciya ştatının qubernatoru Natan Dil Xocalı soyqırımının ildönümü ilə bağlı bəyanat imzalayıb.

N.Dil 23 il bundan əvvəl Xocalıda baş vermiş qətliamla əlaqədar Corciya ştatı adından kədərini ifadə edərək, bu faciəvi günü yad edənlərə qoşulduğunu bildirib.

Bəyanatda qeyd olunur ki, 1992-ci ildə Azərbaycanda törədilən bu amansız qətliam nəticəsində 600-dən çox mülki insan həyatını itirib. Gələcəkdə belə dəhşətli hadisələrin baş verməməsi üçün bu kimi faciəvi günlərin yad edilməsi olduqca önəmlidir.

Qubernator Xocalı qətliamının ildönümü ilə bağlı tədbirlərin təşkilini təqdir edərək bildirir: "Qoy belə faciələrin tariximizin səhifələrini bir daha ləkələməsinə heç zaman yol verilməsin".

Bu, Corciya qubernatoru tərəfindən Xocalı soyqırımının tanınması ilə bağlı imzalanmış ilk rəsmi sənəddir.



# Azərbaycan ilə Gürcüstan arasında din sahəsində əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb

**Fevralın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gürcüstan Patriarxlığının Xarici əlaqələr şöbəsinin müdiri Gerasim Şaraşanidzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə QMİ-nin sədr müavini hacı Salman Musayev və Gürcüstanın Xornabuci və Hereti yeparxiyasının yeni təyin olunmuş yepiskopu Dmitri Kapanadze iştirak edib.

Görüş zamanı iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən din sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb.

# Azərbaycanla İsveç arasında dini sahədə əlaqələr müzakirə olunub



Azərbaycanın İsveçdəki səfiri Adış Məmmədov bu ölkənin dini lideri, arxiyepiskop xanım Antje Jackelen ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında dini sahədə əlaqələrlə bağlı müzakirələr aparılıb.

A.Məmmədov səfir kimi fəaliyyəti dövründə İsveçlə Azərbaycan arasında münasibətlərin inkişafına, habelə mədəniyyətlərarası və dinlərarası əlaqələrə böyük əhəmiyyət verdiyini söyləyib.

Diplomat hər bir xalqın və mədəniyyətin formalaşmasında dinin mühüm rol oynadığını qeyd edib, ölkəmizin müxtəlif dinləri birləşdirən məkan olduğunu diqqətə çatdırıb. Səfir Azərbaycan əhalisinin 95 faizini müsəlmanların təşkil etməsinə baxmayaraq, ölkədə müsəlmanlarla yanaşı, xristianların və yəhudilərin də yaşadıqlarını, 2000-dən artıq məscidin, 11 kilsənin və 6 sinaqoqun fəaliyyət göstərdiyini bildirib. O, ölkəmizdə müxtəlif xalqların və dinlərin nümayəndələrinin azad və rahat yaşamaları üçün hər cür şəraitin mövcudluğunu qeyd edib. Səfir Azərbaycanın tolerantlıq modelinin dünyanın bir sıra siyasi və dini mərkəzləri tərəfindən təqdir edildiyini diqqətə çatdırıb.

Diplomat Azərbaycan dövlətinin ölkədə tolerantlıq mühitinin yaradılması və qorunub saxlanmasında mühüm işlər gördüyünü, respublikamızın mütəmadi olaraq mədəniyyətlərarası və dinlərarası dialoqlar üzrə beynəlxalq konfranslara və digər bu kimi tədbirlərə ev sahibliyi etdiyini diqqətə çatdırıb.

A.Məmmədov Azərbaycan xalqının erməni separatizminin törətdiyi fəsadlardan əziyyət çəkdiyini, ölkəmizin ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğunu, bu işğalın 1 milyondan artıq qaçqın və məcburi köçkünün yaranması ilə nəticələndiyini diqqətə çatdırıb. Səfir Ermənistanın həmin ərazilərdə separatizmi dəstəklədiyini, Azərbaycana məxsus maddi-mənəvi dəyərləri məhv etdiyini, ölkəmizə qarşı hər bir mənada genosid siyasəti həyata keçirdiyini bildirib.

Diplomat Xocalı faciəsi ilə də bağlı məlumat verərək, ABŞ-ın 15 ştatında bu soyqırımının Azərbaycan xalqına qarşı qətliam kimi qiymətləndirilməsi ilə bağlı qətnamələrin qəbul edildiyini diqqətə çatdırıb.

Arxiyepiskop Antje Jackelen İsveçdə uzun illər demokratik dövlət quruculuğunda dinin önəmsiz olaraq qiymətləndirildiyini qeyd edib. Bildirib ki, buna baxmayaraq insanlar getdikcə dinin təbliğ etdiyi sosial həmrəylik kimi dəyərlərin mühüm rol oynadığını dərk ediblər.

Bütün dinlərdə insan amilinin hər şeydən üstün olduğunu bildirən arxiyepiskop günahsız insanların qətlə yetirilməsinin bütövlükdə bəşəriyyətin faciəsi olduğunu qeyd edib və bu mənada ölkəmizdə baş verən qətliamla bağlı Azərbaycan xalqının kədərini bölüşdüyünü bildirib.

A.Məmmədov A.Jackelenə Xocalı faciəsinin 23-cü ildönümü ilə bağlı kitab, məlumat broşürü, disk və Azərbaycanda fəaliyyət göstərən dini liderlərin dünya liderlərinə birgə ünvanladıqları müraciəti təqdim edib.

# Milli-mənəvi dəyərlərimiz: varislik və müasirlik

**Fevralın 19-da "Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi"ndə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimiz: varislik və müasirlik" adlı növbəti açıq mühazirə dinlənilib. Mühazirəni Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı təqdim edib.**

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov tədbirin gənclərin maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizə bağlılığının qorunması, milli yaddaşın möhkəmlənməsi, ölkəmizdə mövcud tolerant mühitinin qorunması və təbliği baxımından böyük əhəmiyyət daşıdığını qeyd edib.

Rektor milli-mənəvi dəyərlərin qorunub saxlanması, gənc nəslə aşılanması, gənclərin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu istiqamətdə məlumatlandırılmasının təmin edilməsi üçün maarifləndirici tədbirlərin daha çox keçirilməsinin önəmini qeyd edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə dövlət-din münasibətlərindən danışaraq qeyd edib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib. O, Ümummilli Lider Heydər Əliyevin bu istiqamətdə mühüm xidmətlərini qeyd edib və hazırda Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması və təbliği istiqamətində həyata keçirdiyi işlərdən danışıb.

Mübariz Qurbanlı gənclər arasında dini maarifləndirmə işinin aparılmasının zəruriliyindən, bəzi radikal qrupların gəncləri öz təsir dairəsinə salmağa çalışmasından danışaraq, bunun qarşısının alınması üçün görülən işlərin bundan sonra da uğurla davam etdiriləcəyini vurğulayıb. Komitə sədri qeyd edib ki, Azərbaycanda dini radikalizmə qarşı mübarizə qanun çərçivəsində aparılır və bu mübarizədə ən effektiv vasitə maarifləndirmə işidir.

Komitə sədri ölkəmizdə hər kəsin dini əqidəsini ifadə etmək və yaymaq hüququnun, bütövlükdə konstitusion normalarla tənzimlənən vicdan azadlığının tam bərqərar olunması üçün bütün zəruri tədbirlərin görülməsi, dini radikalizmin, fanatizmin, ekstremizmin qarşısının alınması istiqamətində strateji əhəmiyyətli tədbirlərin həyata keçirildiyini bildirib.

Diqqətə çatdırılıb ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətləri də yüksək səviyyədə qurulub. Ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət dini himayə etməkdən imtina etməyib. İnsanların öz dini ibadətlərini icra etmələri üçün hər cür şərait var. Azərbaycan iqtisadi inkişafı ilə yanaşı, dünyada həm də tolerantlıq modeli ilə tanınan ölkədir. Bununla yanaşı, hələ də bəzi insanların təfəkküründə yanlış dini stereotiplər var və bu, bir çox hallarda problemlər yaradır. Digər tərəfdən isə bu, bəzi dini icmaların, sektaların pozucu fəaliyyəti ilə bağlı olur. Bütün bunlar bəzən gənclər arasında çaşqınlığın yaranmasına gətirib çıxarır.

Qeyd edilib ki, cəmiyyətdə qanunlarla yanaşı, milli-mənəvi dəyərlərimiz də mühüm rol oynayır və bu dəyərlərin qorunmasında gənclərin rolu olduqca önəmlidir.

Sonda müəllimləri və tələbələri maraqlandıran suallar cavablandırılıb.




## Mübariz Qurbanlı Gürcüstanın Azərbaycandakı səfirini qəbul edib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 13-də Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidzeni qəbul edib. Görüş zamanı Azərbaycan ilə Gürcüstan arasında dini, mədəni və humanitar sahədə əməkdaşlıq məsələləri müzakirə olunub.

Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşün sonunda səfir səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.

## Ermənilər tərəfindən dağıdılan abidələrin sayı 1000-ə yaxındır



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə açıqlamasında işğal altındakı ərazilərdə ermənilər tərəfindən dağıdılan abidələrin, məscidlərin ümumi sayının 1000-ə yaxın olduğunu bildirib.

O qeyd edib ki, bu abidələr işğal olunmuş ayrı-ayrı rayonlarda yerləşir: "Onların içərisində məscidlər, kitabxanalar və mədəniyyət ocaqları var. Dağıdılan abidələr içərisində yalnız müsəlman abidələri deyil, eyni zamanda yəhudi və alban xristian məbədləri də var. Biz məhz bu məsələləri dünya ictimaiyyətinə çatdırmaq istəyirik. Azərbaycanın hücum diplomatiyası bu barədə ciddi uğurlar əldə etməkdədir".

## "İşğal altında qalmış abidələrimiz – tarixi yaddaşın izi ilə" mövzusunda konfrans keçirilib

Fevralın 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İnsan Hüquqları Elmi-Tədqiqat İnstitutu ilə birgə "İşğal altında qalmış abidələrimiz – tarixi yaddaşın izi ilə" mövzusunda konfrans keçirib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, İnsan Hüquqları İnstitutunun direktoru, Milli Məclisin deputatı Aytən Mustafayeva, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Fərhad Məmmədov, müvafiq dövlət qurumlarının əməkdaşları, dini konfessiyaların rəhbərləri və nümayəndələri, alimlər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı işğal altındakı abidələrimizdən danışaraq qeyd edib ki, Azərbaycan ictimaiyyəti erməni vandalizmi, onların işğal olunmuş Azərbaycan ərazilərində, eləcə də indiki Ermənistanda azərbaycanlılara və maddi-mədəniyyət abidələrinə qarşı törətdikləri vəhşiliklər haqqında kifayət qədər məlumatlıdır. Hazırda bizim məqsədimiz bu faktları müxtəlif dillərdə dünya ictimaiyyətinə çatdırmaqdır: "Bizim "hücum diplomatiyamız"ın içində Ermənistanın törətdiyi vəhşiliklərin dünya ictimai rəyinə çatdırılması əsas yerlərdən birini tutur. Bununla bağlı Heydər Əliyev Fondu da böyük işlər görür. İşğal olunmuş ərazilərimizdə çoxlu sayda abidələrimiz, o cümlədən məscidlər dağıdılıb. Abidələrimizin ümumi sayı minə yaxındır. Onların içində həmçinin mədəniyyət abidələri, kitabxanalar, klublar, dini abidələr var. Ermənilər təkcə İslam dünyasına aid abidələri deyil, eyni zamanda xristian abidələrini də dağıdıblar. Biz bu barədə ictimaiyyəti bir daha bilgiləndirmək istəyirik".




İnsan Hüquqları İnstitutunun direktoru, Milli Məclisin deputatı Aytən Mustafayeva bildirib ki, konfransın əsas məqsədi Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarında dağıdılmış, eyni zamanda ermənilərin özününküləşdirməyə cəhd göstərdikləri dini abidələrimizlə bağlı elmi müzakirə və diskussiyaların aparılması, bu barədə cəmiyyətin məlumatlandırılmasıdır.

Konfransda "Erməni təcavüzü və dini abidələrimiz", "Dağlıq Qarabağda monumental incəsənət və dini abidələrin ermənilər tərəfindən dağıdılmasının tarixi səbəbləri" mövzularında məruzələr dinlənilib və mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb. Digər çıxış edənlər də konfransın aktual mövzuya həsr olunduğunu, erməni saxtakarlığının ifşasında belə tədbirlərin əhəmiyyətini vurğulayıblar.

Konfransın sonunda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İnsan Hüquqları Elmi-Tədqiqat İnstitutu arasında "Birgə əməkdaşlıq haqqında anlaşma Memorandumu" imzalanıb.

# “Multikulturalizmin mahiyyəti, məqsədi, məramı xalqımız üçün yeni deyil”

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "Respublika" qəzetinə müsahibəsi*



**– Azərbaycan dünyəvi, demokratik, hüquqi, unitar dövlət olmaqla bərabər, eyni zamanda öz mill-mənəvi dəyərlərinə söykənən bir dövlətdir. Bu mənada ölkəmizdə dövlət-din münasibətləri necə tənzimlənir?**

– Fəxrlə qeyd edə bilərəm ki, Azərbaycan bu gün güclü dövlət quruculuğu istiqamətində möhkəm dayaqlar üzərində irəliləyir və bu dayaqlardan biri, bəlkə də birincisi xalqımızın öz milli-mənəvi dəyərlərinə bağlılığıdır. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycanda dövlət-din münasibətlərinin formalaşmasında həyata keçirdiyi din siyasətinin əsasında da bu dayanır. Ümummilli Liderimizin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində gördüyü böyük işlər dini etiqad azadlığına geniş imkanlar açdı və nəticədə dini icmaların normal fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradıldı. Ümumiyyətlə, Ulu Öndərin dövlət-din münasibətləri sahəsində irəli sürdüyü ideyaların, dünyagörüşünün, müdrik tövsiyələrin bu günün reallıqları kontekstində oynadığı müsbət rolu daha aydın görürük. Bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq, dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən məqbul bir model kimi qəbul olunur və bəyənilir. Hətta Azərbaycan təcrübəsindən, modelindən istifadə etmək istəyən Qərb dövlətləri də az deyil. Bütün bunlar həm də Ulu Öndər Heydər Əliyev siyasətini layiqli formada davam etdirən Prezident İlham Əliyevin uğurlarının nəticəsidir. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir. Xüsusilə böyük tarixə malik məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir. Digər tərəfdən, mədəni irsimizin qorunmasına, tarixi abidələrimizin bərpasına böyük önəm verən, beynəlxalq aləmdə milli, dini dəyərlərimizin təbliği sahəsində məqsədyönlü işlər görən, Azərbaycan mesenatlığının dirçəldilməsində layiqli nümunə göstərən ölkənin birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti ölkəmizdə dinə olan dövlət qayğısının əyani təzahürüdür.

Beləliklə, deyə bilərik ki, ölkəmizdə dövlət-din münasibətlərinin əsasında iki fundamental baza durur: milli-mənəvi dəyərlər kompleksi və qanunvericilik bazası. Bu sahədə qanunvericiliyimizin əsasını ölkə Konstitusiyası və “Dini etiqad azadlığı haqqında” Qanun təşkil edir. Ötən müddət ərzində edilmiş əlavə və dəyişikliklər hesabına hüquqi bazamız daha işlək demokratik format qazanmışdır. Bəllidir ki, dövlət üçün imtiyazlı, yaxud başqasından üstün dini qurum yoxdur. Bu anlamda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində strateji vəzifələrimiz üç əsas amil üzərində qurulmuşdur: dini etiqad azadlığının təmin edilməsi; dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanılması; dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınması.

**– Azərbaycanın dinlərarası və millətlərarası dialoq üçün nümunəvi platformaya çevrilməsi və multikulturalizm strategiyasına qoşulması haqqında düşüncələrinizi bilmək istərdik.**

– Birinci onu deyim ki, Azərbaycanın dinlərarası və millətlərarası dialoq üçün nümunə göstərilməsi heç də təsadüfi deyil. Çünki mühüm geostrateji mövqelərə malik olan ölkəmiz əsrlər boyu dinlərin, dini baxışların yayıldığı məkan olub. Tarix boyu Azərbaycan ərazisində etnik və dini icmalar arasında möhkəm dözümlülük, tolerantlıq əlaqələri olub və milli, irqi, dini ayrı-seçkiliyə yol verilməyib. Bütün xalqlar vahid və mehriban bir ailə kimi yaşayıb, müxtəlif dinlərə mənsub insanlar sülh və əmin-amanlıq şəraitində dinc fəaliyyət göstəriblər. Azərbaycan xalqı həmişə bölgədə dostluğun, qardaşlığın möhkəmləndirilməsinə, insanlar arasında milli-dini mənsubiyyətindən asılı olmayaraq sülh və əmin-amanlıq şəraitinin yaradılmasına misilsiz tarixi töhfələr vermişdir. Başqa dinlərə münasibətdə dözümlülük, onlarla yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq bizim milli əxlaqi dəyərlərimizin əsas xüsusiyyətlərindəndir. Bu baxımdan tarixən ölkəmizdə İslam dini ilə yanaşı, Xristianlıq, İudaizm və başqa dinlərə mənsub insanlar da məskunlaşmış, sülh və əmin-amanlıq şəraitində yaşamış və indi də bu ənənə uğurla davam etdirilir.

Bu gün multikutural dəyərlərdən söhbət açılır, böyük müzakirələr aparılır. Düzdür, “multikulturalizm” termin kimi bizim üçün nisbətən yeni səslənsə də, onun mahiyyəti, məqsədi, məramı xalqımız üçün yeni deyil. Biz əsrlər boyu humanist dəyərlərdən çıxış edərək ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələrinin dilini, dinini, mədəniyyətini tanımışıq, hörmət bəsləmişik. Xalqımız bu mədəni müxtəlifliyi qoruyub, onu zənginlik kimi başa düşüb və bu gün nəticə olaraq bu müxtəliflik harmoniya şəklində inkişafa yönələn vəhdəti ifadə edir. Bu bizim üçün bir dəyərdir və onu qorumaq dövlətimiz üçün əhəmiyyət kəsb edir. Cənab Prezident İlham Əliyevin bu sahəyə diqqəti böyükdür və onun xüsusi qayğısı nəticəsində ötən ilin fevral ayında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidməti, may ayında isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır.

Düzdür, dünyada multikulturalizmlə bağlı bəzən birmənalı fikirlər səsləndirilmir, bu anlayışın yox olacağını irəli sürənlər də var. Hesab edirəm ki, cənab Prezident İlham Əliyev ötən ilin oktyabr ayında keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumundakı nitqində bu məsələ ilə bağlı dediyi fikirlər dünya ictimaiyyətini dərindən düşündürməlidir. Prezident demişdir: “Bəzi bəyanatlar bizi məyus edir ki, multikulturalizm iflasa uğradı, multikulturalizmin gələcəyi yoxdur. Bu, çox təhlükəli bəyanatlardır. Qeyd etməliyəm ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir”.

**– Ölkəmizdə nə qədər dini qurum (müsəlman və qeyri-müsəlman) var və bu qurumlar qanuni şəkildə fəaliyyət göstərmək üçün hansı kriteriyalara cavab verməlidirlər?**

– Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan, yəni 2009-cu ilin sentyabr ayından indiyədək 598 dini qurum Dövlət Komitəsində qeydiyyatdan keçmişdir. Konfessional baxımdan onların 577-si islam, 21-i isə qeyri-islam (xristian - 12; yəhudi - 6; krişna - 1; bəhai - 2) təmayüllüdür. Qanunvericiliyimizdə dini qurumların fəaliyyətlərinin tənzimlənməsi ilə bağlı kifayət qədər müfəssəl müddəalar mövcuddur. Təbii ki, hər bir dini icma öz fəaliyyəti istiqamətində bu müddəalara riayət etməlidir, əks təqdirdə ciddi hüquqi məsuliyyətə cəlb edilmə halları yarana bilər. Bundan əlavə, dini icmaların Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri tərəfindən təsdiq edilmiş nizamnamələri də olur. Həmin nizamnamələrdə ümumi müddəalarla yanaşı, dini icmanın vəzifələri, fəaliyyət formaları, strukturu, idarəetmə orqanları və onların təşkili qaydası, icma və dövlət münasibətləri, xarici əlaqələr, icmanın maliyyə-təsərrüfat fəaliyyəti və s. məsələlər əksini tapmaqdadır. Hesab edirəm ki, hər bir dini icma üzvü ehkamlara həssaslıqla riayət etdikləri kimi, bu sahə ilə bağlı qanunvericiliyin müddəalarını, öz hüquqlarını və vəzifələrini də çox yaxşı bilməlidirlər. Fəaliyyətlərində aktiv olmalı, dini qurumun kənar təsir altına düşməsinə və yad ünsürlərin dini qurumun fəaliyyət göstərdiyi ibadət yerinə müdaxiləsinə yol verməməlidirlər. Ümumiyyətlə, cəmiyyətin mənəvi baxımdan sağlamlığına xidmət etməli, saf dini dəyərləri yaşatmalı, xurafat, dini dözümsüzlük və ayrı-seçkilik halları ilə mübarizə aparmalıdırlar.

**– Köhnə postsovet məkanında, xüsusilə müsəlman əhalisinin üstünlük təşkil etdiyi respublikalarda müxtəlif təriqətlərin sayı gündən-günə artır. Respublikamızda, əsasən də paytaxt Bakıda da belə təriqətlər mövcuddur. Bu təriqətlərin heç də hamısı xoşməramlı deyil, əksinə, bir çoxu aqressiv xarakter daşıyır. Xüsusilə də onlar az və yaxud da heç təhsili olmayan gəncləri öz təsirləri altına salmağa maraqlıdırlar. Bu da sözsüz ki, cəmiyyətimiz üçün təhlükə yaradır. Bu hallara qarşı Dövlət Komitəsi olaraq hansı tədbirləri görürsünüz?**

– Doğrudur, sovetlərin süqutundan sonra bütün postsovet ölkələrinə, o cümlədən Azərbaycana müxtəlif dini ideologiyalara aid təriqətlər, cərəyanlar sirayət etməyə başladı. Diqqət yetirdikdə görürük ki, bütün bunlar cəmiyyətdə dini şüurun dirçəlməsi fonunda baş verirdi. Belə cərəyanlar daha sonra insanların saf dini duyğularından istifadə edib, öz məkrli məqsədlərini həyata keçirməyə başladılar, din adından çıxış edib cəmiyyətdə dözümsüzlüyü, fanatizmi yaydılar, nəticədə hətta bir-birini təkzib edən radikal qruplara çevrildilər. Belə qruplar adətən öz mövcudluğunu göstərmək üçün insanlar arasında münasibətlərin kəskinləşməsində, ictimai asayişin pozulmasında maraqlı olurlar ki, məkrli planlarını həyata keçirsinlər. Öz məqsədlərinə tam nail ola bilməsələr də, çox təəssüf ki, destruktiv ideyalarını müəy-yən qədər, xüsusilə də bəzi gənclər arasında yaymağı bacarmışlar. Lakin bütövlükdə bu qruplar cəmiyyətimizə təsir göstərmək imkanına malik deyillər. Onların ölkədə ciddi sosial dayaqları yoxdur. Çünki dini radikal qrupların Azərbaycana gətirərək təbliğ-təşviq etmək istədikləri “ideyalar” xalqımıza, cəmiyyətimizə xas deyil. Onsuz da bu gün həmin qüvvələrin təsir imkanları dövlətin müvafiq strukturlarının həyata keçirdiyi tədbirlər nəticəsində çox zəifləmişdir, fəaliyyətləri ciddi nəzarət altındadır.

*(Davamı səh. 5-də)*

# "Multikulturalizmin mahiyyəti, məqsədi, məramı xalqımız üçün yeni deyil"

(Əvvəli səh. 4-də)

Aparılan təhlillər göstərir ki, dini radikal qrupların yaradılmasında məqsəd müəyyən xarici siyasi və geopolitik maraqları həyata keçirməkdir. Onlar anlamırlar ki, siyasi oyunlara alət edilən din əsl missiyasını, mahiyyətini itirmiş olur. Dinin siyasiləşməsinin doğurduğu acı nəticələri biz bu gün İraq və Suriyada baş verən hadisələrdən aydın görürük.

Biz heç vaxt imkan verə bilmərik ki, ölkədəki dini etiqad azadlığından sui-istifadə edilərək xalqımızın yüzillər boyu yaşatdığı tolerantlıq ənənələrinə xələl gətirilsin. Ona görə də dünyəvi dövlət olaraq Azərbaycanda dindən siyasi məqsədlər naminə istifadə etməyə çalışanlara və dağıdıcı fəaliyyət göstərənlərə qarşı birmənalı olaraq şərait yaradılmayacaq, kənardan gətirilməyə cəhd edilən radikal dini cərəyan və təriqətlərin fəaliyyətinə imkan verilməyəcəkdir. Onlara qarşı həm inzibati, həm də ideloloji müstəvidə kəskin mübarizə aparırıq və aparacağıq.

Cəmiyyəti canlı orqanizmə bənzətsək, radikallığı orqanizmin xəstələnməsi kimi səciyyələndirə bilərik. Ona görə də xəstəliklərlə mübarizədə ən yaxşı metod profilaktikadır. Bu baxımdan, maarifləndirmə tədbirlərini gücləndirmişik. Dövlət Komitəsi ötən müddətdə ölkəmizin bütün regionlarında dini sahə ilə bağlı aktuallıq kəsb edən mövzularda ictimaiyyətlə, dindarlarla silsilə konfranslar, seminar-treninqlər, "dəyirmi masa"lar təşkil etmişdir. Maarifləndirməni mətbu orqanlar və nəşrlər vasitəsilə də həyata keçiririk.

Dövlət Komitəsi digər dövlət qurumları ilə də qarşılıqlı əməkdaşlıq şəraitində maarifləndirmə tədbirlərini gücləndirmişdir. Xüsusilə Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə tədbirlər planı və əməkdaşlıq haqqında memorandumlar imzalanmış və icrasına başlanılmışdır. Tədbirlər əsasən dini radikalizm və ekstremizmə qarşı mübarizə, zərərli dini cərəyanların yayılmasının qarşısının alınması ilə bağlıdır.

**– Müxtəlif dini etiqadların dini qurumları ilə qarşılıqlı anlaşmanı möhkəmləndirmək, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dini etiqad azadlığını həyata keçirmək üçün qurulan əlaqələr haqqında nə deyə bilərsiniz?**

– Əvvəl qeyd etdiyim kimi, Azərbaycanda qədim zamanlardan müxtəlif dinlər tolerantlıq şəraitində yan-yana fəaliyyət göstərmişlər. Müxtəlif konfessiyalara mənsub insanların qarşılıqlı xoş əlaqələri ənənə halını almışdır. Bu gün də həmin ənənənin dini icmaların bir-birinə olan münasibətində şahidi oluruq. İstər əlamətdar günlərdə, istər bayramlarda, istərsə də icmaların digər ictimai həyatında bu yaxınlığı, səmimiliyi görürük. Ümumiyyətlə, ölkədə tolerant mühitin yaradılmasına xidmət edən müxtəlif dini konfessiya liderlərinin qarşılıqlı əlaqələri yüksək səviyyədədir.

Dövlət Komitəsi olaraq da tolerantlığın ölkəmizdə daha da təkmilləşməsi və müxtəlif dini konfessiya rəhbərləri arasında qarşılıqlı əlaqələrin inkişafı istiqamətində bir sıra addımlar atılmışdır. Xüsusilə Dövlət Komitəsinin sədri yanında yaradılmış Məşvərət Şurasını qeyd etmək istərdim. Bu Şurada Azərbaycanda fəaliyyət göstərən ənənəvi konfessiyalar - müsəlmanlar, pravoslavlar, yəhudilər, katoliklər rəhbərlik səviyyəsində təmsil olunurlar. Məşvərət Şurasının əsas məqsədi dini etiqad azadlığının təmin olunmasında mövcud məsələlərin müzakirəsi, onların həlli ilə bağlı tövsiyələrin hazırlanması və dinlərarası dialoqun səmərəli təşkilidir. Şuranın vəzifə və funksiyalarına dini konfessiya nümayəndələrinin arasında anlaşma və qarşılıqlı hörmət hissinin gücləndirilməsi, dindarlar arasında radikal, ekstremist meyillərin, o cümlədən dini duruma mənfi təsirlərin, həmçinin mövhumat və xurafat elementlərinin aradan qaldırılması istiqamətində iş aparılması, dövlət-din münasibətlərinin qarşılıqlı etimad əsasında inkişaf etdirilməsi istiqamətində dini qurumların iştirakı ilə tədbirlərin görülməsi və s. bu kimi məsələlər aiddir.

Bundan başqa, ötən il Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin yanında Dinşünaslıq üzrə Komissiya yaradılmışdır ki, burada İslam dini üzrə mütəxəssislərlə yanaşı, Xristianlıq və Yəhudi dininə mənsub ekspertlər cəlb olunmuşlar. Bütün bunlar ölkədə müxtəlif konfessiyalar arasındakı tolerantlığın qorunub saxlanması istiqamətində atılmış addımlardır.

**– Fransada baş verən hadisələrdən sonra bir çox qüvvələr dünyada İslam fobiyası yaratmaq və İslam dinini zorakı və aqressiv din olduğunu sübuta yetirməyə çalışdılar. Bu da sözsüz ki, millətlər arasında normal münasibətlərin qurulmasına öz mənfi təsirini göstərir. Dövlət Komitəsi olaraq, həqiqi İslam dəyərlərini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində nə kimi işlər görülür?**

– Təəssüf ki, bu gün dünyada dini radikallıq, yaxud terror deyiləndə ilk növbədə müsəlmanlar "nümunə" göstərilir. Mən dəfələrlə mətbuatda bu fikri vurğulamışam ki, dini radikalizmdən danışarkən bunu yalnız İslama aid etmək yanlışdır. Terrorçuluğun dini olmadığı kimi, radikallığın da dini yoxdur. Bu baxımdan, istənilən dini-ideoloji baxışları kontekstdən çıxararaq zorakı və aqressiv şəkildə təqdim etmək olar. Hamımız bilirik ki, İslamın mütərəqqi dünyabaxışı, həyat fəlsəfəsi qətiyyən zorakılığı, radikallığı təbliğ etmir. İslam dini müqəddəsdir və onun əsas mahiyyəti sülhdür, dostluqdur.

Lakin bəzi dini qruplar öz siyasi, yaxud digər maraqları çərçivəsində dini baxışları radikal formada təqdim edir, ətraflarına topladıqları təcrübəsiz gənclərin potensialından istifadə edərək ekstremizmə rəvac verirlər. Onların bu mənfi fəaliyyətləri İslamı gözdən salır, Avropadakı sadə kütlədə islamafob fikirlərin yaranmasına səbəb olur. Hesab edirəm ki, Avropadakı islamafobluq intellektual təbəqəyə aid deyil, bu təbəqə ən azından İslam dünyasının bəşər sivilizasiyasına bəxş etdiyi töhfələr haqqında oxumuş olarlar. Bu gün Avropa ölkələrinin kitabxanaları müsəlman müəlliflərin yazdıqları əlyazmalarla, əsərlərlə dolub-daşır. Hətta İslam tarixini öyrənmək istəyən müsəlman mütəxəssislər belə Avropa kitabxanalarına üz tutmağa məcbur olurlar. Çünki tarix elə gətirib ki, avropalılar dünya sivilizasiyasına inkişafına töhfə verən həmin əsərləri öz ölkələrinə aparmış, onlardan bəhrələnmişlər. Sadə məntiqlə düşünsək, əgər həmin əsərlərdə dini radikallıq, zorakılıq, düşmənçilik yaxud digər mənfi təzahürlər olsaydı, onları öz məmləktkətlərinə aparardılarmı?

Ona görə də həqiqi İslam dəyərlərinin elə Avropanın özündə dünya ictimaiyyətinə çatdırılması çox vacibdir. Dövlət Komitəsi bu istiqamətdə müəyyən təcrübəyə malikdir. Qeyd edim ki, İslam bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsi, xüsusilə Azərbaycanda dinlərarası tolerantlığın inkişafına töhfə verən din olduğu üçün bir sıra beynəlxalq sərgilər və konfranslar vasitəsilə bu fikirləri Avropa ziyalısına çatdırmışıq. Xüsusilə, BMT, Avropa Parlamenti, UNESCO, Avropa Şurası və s. mötəbər beynəlxalq qurumlarla ən yüksək səviyyədə keçirilən tədbirlərimizdə ənənəvi İslam dəyərlərinin ölkəmizdə dözümlülük və tolerantlıq baxımından oynadığı müstəsna rol haqqında geniş müzakirələr etmişik. Həmçinin xaricdən çoxlu qonaqlarımız gəlir və buradakı dini mühitlə tanış olduqdan sonra etiraf edirlər ki, həqiqətən də, ölkəmizdə radikal İslam sosial dayaqlardan məhrumdur.

**– Müsahibə üçün təşəkkür edirik.**

## "Terrorçuluğun dini olmadığı kimi, radikallığın da dini yoxdur"

# "Dövlət və Din" ictimai fikir toplusu nəşrini bərpa edib

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəşri olan "Dövlət və Din" ictimai fikir toplusu iki illik fasilədən sonra nəfis tərtibatda yenidən işıq üzü görüb.



Dinşünaslıq, dinin tarixi və fəlsəfəsi ixtisasları üzrə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyatdan keçən elmi jurnalın əsas qayəsi dini dəyərləri və dövlət-din münasibətlərini sağlam mövqedən işıqlandırmaq, ölkəmizdə əsrlərdir mövcud olan və bu gün dünyanın bir çox dövləti üçün nümunə göstərilən tolerantlıq mühitinin, çoxmillətli Vətənimizin birlik və bütövlüyünün zəmanəti olan Azərbaycançılıq məfkurəsinin təbliğidir.

Yeni formatda oxucuların görüşünə gələn toplu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı şəhərində yeni inşa edilmiş Heydər məscidinin açılışındakı iştirakı və Milad bayramı ilə əlaqədar Pravoslav xristian icmasına təbriki ilə açılır. Jurnalın "Rəsmi guşə"sində, həmçinin, dövlətimizin başçısının Qanlı Yanvar hadisələrinin 25-ci ildönümü ilə bağlı Şəhidlər Xiyabanına etdiyi ziyarət işıqlandırılıb.

Nəşrin yeni sayında ölkəmizdə tarixən mövcud olan tolerantlıq, birgəyaşayış, multikulturalizmin Azərbaycan modelindən geniş danışılıb və dinlərarası münasibətlərdən bəhs edilib. Topluda dinlərin terrorizmlə heç bir əlaqəsinin olmadığı qeyd olunub və müasir terrorçuluğun xarakterik xüsusiyyətləri, nəzəri əsasları barədə mülahizələrə ətraflı yer verilib.

Bundan başqa, oxucular bu sayda akademik Vasim Məmmədəliyevin Quranı doğma dilimizə tərcümə edərkən yararlandığı metodlar, İslam dinində ictimai münasibətlərin təkamülü, "Biharul-ənvar" əsərində xariciliyin meydana çıxma səbəbləri, Hilmi Ziya Ülkənin yaradıcılığında sufizm, "Kəşfül-həqayiq" əsərinin tədqiqi, maqların təlimi və "Spinoza fəlsəfəsində cövhərin vəhdəti" kimi maraqlı mövzularla da tanış ola biləcəklər.

Eyni zamanda, bu nömrədə məqalələrdə işlədilmiş dini-fəlsəfi terminlərin izahı ayrıca dərc olunub.

"Dövlət və Din" ictimai fikir toplusunun yenidən işıq üzü görməsinin həm dinşünaslıq və ilahiyyat sahəsi ilə məşğul olan tədqiqatçılar, həm də geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacağı, ölkəmizdə maarifləndirmə işinə töhfə verəcəyi şübhəsizdir.

# "Müasir dövrün çağırışları: Ailə institutu və dini dəyərlərin vəhdəti" mövzusunda konfrans keçirilib



Fevralın 6-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında imzalanmış "2015-2016–cı illər üçün birgə işin təşkilinə dair tədbirlər Planı"na əsasən "Müasir dövrün çağırışları: Ailə institutu və dini dəyərlərin vəhdəti" adlı konfrans keçirilib. Konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Mübariz Qurbanlı, Milli Məclis sədrinin müavini Bahar Muradova, Milli Məclisin Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev, millət vəkilləri Məlahət İbrahimqızı, Sahibə Qafarova, Milli Televiziya və Radio Şurasının sədr müavini Qafar Cəbiyev, dini konfessiyaların, QHT və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Konfransı giriş sözü ilə açan AQUPDK-nın sədri Hicran Hüseynova konfransın əhəmiyyətindən danışaraq bildirib ki, bəzən ailəyə hansısa mənfi təsirləri, xüsusilə də erkən nikahların və qızların təhsildən yayınması və s. problemləri dini məsələlərlə bağlamaq istəyirlər. Bu, düzgün deyil: "İslam dini çox müasir və mütərəqqi dindir. İslam dini elmlə sıx bağlı olan dindir. Biz çox istəyirik ki, insanlarımız dini məsələlərə yaxınlaşsınlar". H.Hüseynova qeyd edib ki, son dövrlər istər yerli, istərsə də beynəlxalq və MDB ölkələrinin mətbuatında dərc olunan materiallarda tez-tez dini məsələlərə qayıdılır, onun mənfi təsirləri ilə bağlı fikirlər səslənir: "Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə imzalanmış memorandum bizə imkan verir ki, iki dövlət qurumu bu sahədə bir çox tədbirlər həyata keçirsin. Bizi, xüsusilə, ən çox narahat edən məsələlərdən biri ailə institutunun möhkəmləndirilməsi sahəsində ailəyə olan mənfi təsirlərin aradan qaldırılmasıdır".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək bildirib ki, Azərbaycan sürətlə və davamlı inkişaf edir. Qadınlarımız dövlət qulluğunda öz töhfələrini verirlər. Təəssüflər olsun ki, təhsildən yayınan, erkən yaşda nikah quran qızların olması faktı ilə rastlaşırıq və orta əsrlərdə olduğu kimi, valideynlər bunu dinlə bağlayırlar. Bu, səhv fikirdir. İslam dininin dəyərləri insanlara düzgün çatdırılmalıdır.

Mübariz Qurbanlı bildirib ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər planına əsasən, bu istiqamətdə işlər görüləcək. O qeyd edib ki, hələ də insanların təfəkküründə səhv dini stereotiplər var və bu, bir çox hallarda problemlər yaradır. Digər tərəfdən isə bu, bəzi dini icmaların, sektaların pozucu fəaliyyəti ilə bağlıdır. Bütün bunlar, bəzi hallarda ailələrin dağılmasına, valideyn-övlad münasibətlərinin pozulmasına gətirib çıxarır.

Milli Məclis sədrinin müavini Bahar Muradova qeyd edib ki, cəmiyyətdə qanunlarla yanaşı, milli-mənəvi dəyərlərimiz də mühüm rol oynayır. Lakin ailə institutunun möhkəmləndirilməsində ilk növbədə qanunlara istinad edilməlidir. O bildirib ki, cəmiyyətdə insanlar yanlış çağırışların arxasınca getməməlidirlər. Çağırışların hamısı heç də mütərəqqi olmur. Bəziləri hətta mürtəce çağırışlar olur. B.Muradova qeyd edib ki, yeni ailə quran gənclər ilk növbədə Ailə Məcəlləsinin mövcudluğundan, ümumilikdə qanunlardan xəbərdar olmalıdır: "Biz ailədə yalnız şəriətə və dini qanunlara istinad etməli deyilik. Biz dünyəvi ölkədə yaşayan insanlar kimi bu məsələlərə milli-mənəvi dəyərlər gözündən baxmalıyıq".

Konfransda Musa Quliyev, Məlahət İbrahimqızı, Sahibə Qafarova, Qafar Cəbiyev, Sona Vəliyeva, dini konfessiyaların və ictimaiyyətin nümayəndələri Azərbaycanda ailə dəyərləri, ailə institununun formalaşmasında və qorunub saxlanılmasında milli və dini dəyərlərin rolu məsələləri ilə bağlı çıxış ediblər. Məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

## *Mübariz Qurbanlı: Cəmiyyətdə din-ailə münasibətləri geniş müzakirə edilməlidir*

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə açıqlamasında deyib ki, ailə institutunun daha da möhkəmləndirilməsi üçün cəmiyyətdə din-ailə münasibətləri geniş şəkildə müzakirə edilməlidir. O qeyd edib ki, bəzi yerlərdə gənclər erkən yaşda ailə qurmağa sövq edilirlər. Bunu hər hansı formada bəzən dinlə bağlamaq istəyirlər: **"Vətəndaşlarımıza izah edilməlidir ki, ailə qurmaq hüquqi məsələdir və dövlətin müəyyən etdiyi qanunlarla tənzimlənməlidir. Bu məsələlərdə hər hansı dini ehkamı ortaya qoyaraq bundan istifadə etmək doğru deyil".**

Mübariz Qurbanlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər planına əsasən, bu istiqamətdə işlərin görüləcəyini bildirib.

# Azərbaycan və Küveyt xalqları arasında mənəvi əlaqələr dərinləşir

**Fevralın 20-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Küveyt Əmirinin humanitar məsələlər üzrə müşaviri, eyni zamanda BMT baş katibinin humanitar məsələlər üzrə elçisi Abdullah əl-Mətuq ilə görüşüb.**



İkitərəfli münasibətlər, dini məsələlər ətrafında fikir mübadiləsi aparılan görüşdə Şeyxülislam Azərbaycan və Küveyt xalqları arasındakı tarixi dostluq və qardaşlıq münasibətlərindən söhbət açaraq, bu əlaqələrin ölkələrimizin siyasi, iqtisadi, dini, mədəni-mənəvi sahələrdə inkişafına təkan verdiyini vurğulayıb.

Küveyt Əmirinin müşavirinə ölkəmizin taleyüklü problemi olan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı törədilmiş vəhşiliklər, insan itkisi, dini, mədəni, tarixi abidələrimizin məhv edilməsi, xalqımıza dəyən maddi və mənəvi zərər haqqında məlumat verib.

Allahşükür Paşazadə Azərbaycan və Küveyt xalqları arasında mənəvi əlaqələrin dərinləşdiyini və Abdullah əl-Mətuqun bunun üçün mühüm xidmətlər göstərdiyini qeyd edib. Şeyxülislam vurğulayıb ki, Küveytin Azərbaycanı beynəlxalq qurumlarda həmişə dəstəkləməsi ölkəmizdə yüksək qiymətləndirilir.

A.əl-Mətuq Azərbaycana qarşı hər zaman səmimi dostluq münasibəti bəslədiyini və ölkəmizin mövqeyini daim dəstəklədiyini söyləyib.

Küveytli qonaq Allahşükür Paşazadənin qardaş xalqlarımız arasında mənəvi əlaqələrin inkişafına, beynəlxalq müstəvidə dinlərarası və sivilizasiyalararası dialoqa böyük töhfələr verdiyini vurğulayıb. O, Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoq üçün nümunəvi platformaya çevrilməsinin, ölkəmizin multikulturalizm strategiyasının dünyada böyük fərəh doğurduğunu bildirib.

Ölkələrimiz arasında böyük oxşarlıqların olduğunu vurğulayan qonaq deyib ki, Küveyt hər zaman Azərbaycanın yanında olub, onun haqq işini dəstəkləyib və bu mövqe heç vaxt dəyişməyəcək.



# Dövlət Komitəsinin sədri Polis Akademiyasında görüş keçirib

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 4-də Polis Akademiyasında professor-müəllim heyəti və müdavimlərlə görüş keçirib. Görüşdə Daxili İşlər nazirinin müavini, general-leytenant Oruc Zalov, Polis Akademiyasının rəisi, general-mayor Nazim Əliyev iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Akademiyanın rəisi, general-mayor Nazim Əliyev görüşün əhəmiyyətini yüksək qiymətləndirərək bildirib ki, ölkəmizdə hər kəsin dini əqidəsini ifadə etmək və yaymaq hüququnun, bütövlükdə konstitusion normalarla tənzimlənən vicdan azadlığının tam bərqərar olunması üçün bütün zəruri tədbirlər görülüb. Mövcud qanunvericilik, milli və ictimai təhlükəsizlik maraqları rəhbər tutulmaqla vicdan azadlığından sui-istifadə cəhdlərinin, dini radikalizmin, fanatizmin, ekstremizmin qarşısının alınması istiqamətində daxili işlər orqanları tərəfindən qətiyyətli tədbirlər həyata keçirilir.



Daxili İşlər nazirinin müavini, general-leytenant Oruc Zalov qeyd edib ki, bu gün Azərbaycanda sabitlik hökm sürür. Bu sabitliyin, inkişaf tempinin qorunub saxlanılması üçün Daxili İşlər Nazirliyi öz üzərinə düşən bütün vəzifələri yerinə yetirir. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin inkişafı naminə çox böyük işlər görülür. Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələri bir-birlərinə hörmət edir və mehribanlıq şəraitində yaşayırlar. Azərbaycan xalqı öz tolerantlığı ilə həmişə fəxr etməlidir.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək görüşün keçirilməsində verdiyi dəstəyə görə Daxili İşlər Nazirliyinə (DİN) və Polis Akademiyasının rəhbərliyinə minnətdarlığını bildirib. Mübariz Qurbanlı bildirib ki, Dövlət Komitəsi bir çox dövlət qurumları, o cümlədən DİN ilə birgə tədbirlər Planı imzalayıb. Bu fəaliyyət proqramına əsasən bu gün Polis Akademiyasında keçirilən görüş dini maarifləndirmə və gənclərin milli-mənəvi dəyərlərimizə bağlılığı, ölkəmizdə mövcud tolerant mühitin qorunması və təbliği baxımından çox böyük əhəmiyyət daşıyır. Dövlət Komitəsinin sədri ölkəmizin inkişaf strategiyasından danışarkən qeyd edib ki, Azərbaycan Cənub Qafqazın lider dövlətidir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətləri də yüksək səviyyədə qurulub. Azərbaycanda din dövlətdən ayrı olsa da, dövlət dini himayə etməkdən imtina etməyib. Respublikada məscidlərlə yanaşı, sinaqoq və kilsələr də yenidən tikilir və bərpa edilir. Son on ildə isə 136 məscid tikilib və bərpa edilib. İnsanların öz dini ibadətlərini icra etmələri üçün hər cür şərait var. Ulu Öndər Heydər Əliyevin başladığı siyasət bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Görüşün sonunda iştirakçıların sualları cavablandırılıb və müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səyyad Aran: Dövlətimiz dini plüralizm şəraitini təmin edib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin I müavini Səyyad Aran modern.az saytına açıqlama verib. Onun sözlərinə görə, Azərbaycanda qeyri-islam dinini və yaxud da əksini qəbul edənlərə hər il rast gəlmək mümkündür.

İnsan azadlıqlarına və hüquqlarına uyğun olaraq dövlətimizin dini plüralizm şəraitini təmin etdiyini deyən Səyyad Aran bildirib ki, Azərbaycanda da qeyri-islam təriqətlərinə meyil edən adamlar var: "Hətta məlumatımız olub ki, filan qədər adam "Həyat sözü" dini icmasına üzv olub. Sadəcə olaraq ehtiyac duyulmadığından Azərbaycanda dinini dəyişənlərlə bağlı statistika aparılmır. Çünki Azərbaycanda vətəndaşların vicdan azadlığı tam təmin olunub. Bu, Azərbaycan Respublikası Konstitutsiyasının 48-ci maddəsində təsbit edilib. Həmin maddədə göstərilir ki, hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ var. O cümlədən, "Dini etiqad azadlığı haqqında" Qanunun 1-ci maddəsində də bu fikir daha geniş təsbit edilərək, ifadə olunub".



Dövlət Komitəsi sədrinin birinci müavini, həmçinin Azərbaycanda qeyri-islam dininə meyil edənlərin mərkəzlərini də açıqlayıb: "Bütün demokratik ölkələrdə dini dəyişməklə bağlı tam sərbəstlik var. Avropa ölkələrində, Amerikada başqa qitələrdə də insanların İslam dininə meyil göstərməsinin şahidi oluruq. Azərbaycanda da xristian dininə meyil edən müəyyən insanlar var. Onlar müxtəlif dini sektalarda fəaliyyət göstərirlər. Azərbaycanda dinini dəyişənlər daha çox şəhərlərdə özünü göstərir".

# Baş Dövlət Yol Polisi İdarəsində görüş



**Fevralın 24-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Bakı şəhəri Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin şəxsi heyəti ilə görüşüb.**

Tədbiri giriş sözü ilə açan Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini polis polkovnik-leytenantı Hikmət Eyvazov görüşün əhəmiyyətini yüksək qiymətləndirərək, bütün səmavi dinlərin əsasının sülh və ədalət prinsipləri təşkil etdiyini, ölkəmizdə tolerantlığın gündəngünə möhkəmləndiyini, bu sahədə maarifləndirmə tədbirlərinin, milli və dini münasibətləri tənzimləyən qanunların tələblərinin həyata keçirilməsi istiqamətində Daxili İşlər Nazirliyi tərəfindən təkcə ictimaiyyət arasında deyil, həm də daxili işlər orqanlarının şəxsi heyəti arasında fəaliyyətin davam etdirildiyini iştirakçıların nəzərinə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxış edərək Azərbaycandakı mövcud dini durum, dövlətin bu sahəyə qayğısı, ölkəmizdə radikalizm meyillərinin yaranmasının səbəbləri, bu meyillərin yayılmasında maraqlı olan qüvvələr haqqında məlumat verib. Eyni zamanda, ölkəmizdə dini ekstremizmə qarşı maarifləndirmə və koordinasiya işinin təşkili üzrə keçirilən tədbirlər barədə iştirakçıları məlumatlandırıb. Görüşdə, həmçinin Bakı şəhərində radikalizmə meyilli şəxslərin fəaliyyət metodologiyası, istifadə etdikləri üsullar, vasitələr və onlara qarşı mübarizə taktikası barədə məlumatlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Bakı şəhəri BPİ-nin Dövlət Yol Polis İdarəsinin rəis müavini polis polkovnik-leytenantı Qəhrəman Qələndərov çıxış edərək, əməkdaşlar arasında dini, mənəvi-əxlaqi dəyərlərin qorunması sahəsində görülən işlərdən danışıb, ölkəmizdə dini sahədə maarifləndirmə işləri ilə bağlı belə tədbirlərin əhəmiyyətini qeyd edərək, şəxsi heyət adından minnətdarlığını bildirib.

# Bakı şəhər Baş Polis İdarəsində tədbir keçirilib




Fevralın 19-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Bakı şəhər Baş Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti ilə görüşüb.

Komitə sədrinin müavini Səyavuş Heydərov dini ekstremizmin yaranma səbəbləri, bu məsələdə maraqlı qüvvələr, o cümlədən ölkəmizdə dini sahədə cərəyan edən bəzi neqativ proseslər, tendensiyalar, onun yayılmasının qarşısının alınması üçün birgə fəaliyyət barədə fikirlərini bölüşüb. Görüşdə, həmçinin Bakı şəhərində radikalizmə meyilli şəxslərin fəaliyyət metodologiyası, istifadə etdikləri üsullar, vasitələr və onlara qarşı mübarizə taktikası barədə məlumatlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb.



# “Radikal meyilli təzahürlərin yayılma səbəblərinin araşdırılması məqsədilə tədbirlər həyata keçirilir”

## Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Lent.az-a müsahibəsi

**- Ölkədəki dini durumu necə qiymətləndirirsiniz?**

- Bu gün Azərbaycanda dini durum sabitdir, stabildir. Ölkəmizdə dini etiqad azadlığı yüksək səviyyədə təmin edilir. Bütün dinlərin nümayəndələri bərabərhüquqlu şəkildə fəaliyyət göstərir və bu baxımdan da Azərbaycandakı mövcud tolerantlıq nümunəsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

**- Bu sabitliyi qorumaq üçün Komitə tərəfindən hansı tədbirlər həyata keçirilir?**

- Bu məsələdə Dövlət Komitəsi tərəfindən əsasən maarifləndirmə və aidiyyəti dövlət strukturları ilə qarşılıqlı əlaqələrin, koordinasiya işinin təşkilinə xüsusi önəm verilir. Hazırda mövcud tədbirlər planı əsasında Bakı şəhəri və respublikanın digər bölgələrində Qafqaz Müsəlmanları İdarəsi, yerli icra strukturları və hökumət və qeyri-hökumət təşkilatları ilə birgə konfranslar, seminarlar, görüşlər təşkil olunur, izahat işləri aparılır. Dövlət və qeyri-dövlət strukturları ilə birgə ölkədə dini sahədəki durumun qiymətləndirilməsi, cərəyan edən proseslərin, tendensiyaların öyrənilməsi, radikal meylli təzahürlərin yayılma səbəblərinin araşdırılması



məqsədilə layihələr çərçivəsində bir sıra tədbirlərin keçirilməsi işlərinə başlanılıb. Eləcə də, Komitə tərəfindən aidiyyəti dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi, koordinasiya işinin təkmilləşdirilməsi, xüsusilə radikalizmə qarşı mübarizənin effektliyinin artırılması üçün təsdiq edilmiş Tədbirlər planı əsasında zəruri işlər həyata keçirilir.

**- Bu gün bəzi rayonlarda müxtəlif evlərdə dini təriqət nümayəndələri toplaşaraq dini ayinlər yerinə yetirirlər. Onların bəziləri vaxtı ilə icma şəklində qeydiyyata alınıb. Onlara hazırda nəzarət necə həyata keçirilir? Həmin icmaların qeydiyyatına yenidən baxılırmı?**

- 2009-cu ilədək dini qurumlara istədikləri yeri hüquqi ünvan kimi göstərmələrinə icazə verilirdi. “Dini etiqad azadlığı haqqında” qanuna edilən təkmilləşdirici dəyişikliklərdən sonra İslam təmayüllü dini icmalar yalnız məscidlərdə yaradılmalı və dini ayinlər həmin məscidlərdə icra edilməlidir. Bununla əlaqədar, həmin islam təmayüllü icmalar hüquqi ünvanlarını dəyişərək təkrar qeydiyyatdan keçməlidirlər. Həmçinin, onu da qeyd edim ki, qeyri-islam təmayüllü dini icmalara qeyri-ibadət yerlərində qeydiyyata alınmalarına icazə verilsə də, icma üzvləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdırlar.

**- Komitə sədri Mübariz Qurbanlı Lent.az-a bir neçə ay öncə müsahibəsində bildirmişdi ki, Komitənin yeni regional şöbələri yaradılacaq. Həmin şöbələr fəaliyyətə başladımı?**

- Hazırda Komitənin yeni strukturunun, o cümlədən regional şöbələrinin formalaşdırılması və onların ştat vahidinin müəyyənləşdirilməsi prosesi yekunlaşmaq üzrədir. Yaxın vaxtlarda həmin ştatlar üzrə kadrların qəbulu üçün Prezident yanında Dövlət qulluğu Məsələləri üzrə Komissiyaya məlumat veriləcək.



# Mühafizə polisində radikalizmlə bağlı tədbir olub

Fevralın 12-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis Taborunun rəhbərliyi və şəxsi heyəti ilə görüşüb.

Görüşdə Səyavuş Heydərov "Dini radikalizm və onun təzahür formaları" mövzusunda məruzə ilə çıxış edib. S.Heydərov dini cərəyanların Azərbaycana axını, onların burada yayılmasını şərtləndirən amillər barədə danışarkən bildirib ki, Ermənistan-Azərbaycan münaqişəsi, məcburi köçkün və qaçqın probleminin meydana çıxması, ideoloji sahədəki boşluqlar, sosial çətinliklərin mövcudluğu, ölkənin humanitar yardıma ehtiyacı və s. bu kimi vəziyyətdən ölkəmizə qarşı siyasi, iqtisadi marağı olan, burada təsir dairəsini genişləndirməyə çalışan bəzi ölkələrin müxtəlif bəhanələr, o cümlədən humanitar missiya adı altında fəaliyyəti Azərbaycan ərazisində qeyri-ənənəvi təriqətlərin, cərəyanların ilk toxumlarının səpilməsinə zəmin yaratdı.

Səyavuş Heydərov sosial dayağı olmayan radikal meyilli qüvvələrlə mübarizə ilə bağlı görülən ardıcıl, məqsədyönlü maarifləndirmə tədbirləri barədə ətraflı məlumat verib.

Sonda iştirakçıların sualları cavablandırılıb və müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan nümayəndə heyəti Amerika yəhudi təşkilatları ilə görüşlər keçirib





ABŞ-ın Los-Anceles şəhərində səfərdə olmuş Azərbaycan nümayəndə heyəti bu ölkədə fəaliyyət göstərən bir sıra yəhudi təşkilatları ilə görüşlər keçirib. Azərbaycanın Los-Ancelesdəki Baş konsulluğunun təşkilatçılığı ilə ilk görüş Amerika-İsrail İctimaiyyətlə Əlaqələr Komitəsinin Los-Ancelesdəki İdarə heyətinin üzvləri ilə olub. Görüşdə Azərbaycandan gəlmiş nümayəndə heyətinin üzvləri –Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Milli Məclisin deputatı Yevda Abramov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, həmin dini icmanın ravvini Avraam İsakovla yanaşı, ölkəmizin Los-Angelesdəki Baş konsulu Nəsimi Ağayev də iştirak edib.

Yəhudilərin Azərbaycandakı vəziyyətindən danışan Yevda Abramov ölkəmizdə demokratik və dünyəvi cəmiyyət formalaşdığını, hər bir etnik və dini qrupun sərbəst fəaliyyət göstərdiyini bildirib. O qeyd edib ki, yəhudilərin Azərbaycanda heç bir problemi yoxdur və Azərbaycan-İsrail münasibətləri inkişaf etməkdədir. Lakin təəssüf ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü hələ də davam edir və bundan bütün ölkə vətəndaşları, o cümlədən yəhudilər əziyyət çəkirlər. Milix Yevdayev isə Dağ yəhudiləri icmasının tarixindən və dövlətin icmaya qayğısından danışıb. O, bildirib ki, iyirmi beş əsrdir yəhudilər Azərbaycanda yaşayır və bu müddət ərzində yəhudilərlə azərbaycanlılar arasında yalnız qardaşlıq münasibətləri mövcud olub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Azərbaycanda dövlət-din münasibətlərindən, tarixən formalaşmış tolerantlıq ənənələrindən və həmin ənənələrin bu gün də davam etdirilməsindən danışıb. Gündüz İsmayılov bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra təkcə məscid və ziyarətgahlar deyil, kilsə və sinaqoqlar da bərpa edilib və yenidən qurulub. Eyni zamanda, Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və qayğısı ilə 2011-ci ildə Bakı şəhərində Dağ yəhudiləri üçün yeni sinaqoq inşa edilib. Dini icmalara dövlət tərəfindən maddi yardım göstərildiyini qeyd edən Gündüz İsmayılov bildirib ki, Azərbaycan təkcə təbii sərvətlərlə deyil, həm də multikultural zəngin mədəniyyətə sahibdir. Bu baxımdan, Azərbaycan cəmiyyəti beynəlxalq aləmdə tolerantlıq modeli kimi qəbul edilir.

Amerika-İsrail İctimaiyyətlə Əlaqələr Komitəsinin rəsmi nümayəndəsi Maykl Tuşen Azərbaycanda yəhudilərə yüksək münasibət olduğunu, həm Azərbaycan-İsrail, həm də Azərbaycan-Amerika arasında əlaqələrə çox böyük əhəmiyyət verdiklərini bildirib. O qeyd edib ki, istər region, istərsə də İslam dünyasının əhəmiyyətli dövləti olan Azərbaycanla əlaqələrin daha da inkişaf etdirilməsi vacibdir və bunun üçün səylərini əsirgəməyəcək.

Azərbaycan nümayəndə heyəti Kolumbiya Universitetinin nəzdindəki yəhudi Hillel mərkəzinin rəhbəri ravvin Chaim Seidler Feller və Amerika Yəhudi Komitəsinin Los-Anceles bölməsinin İdarə Heyətinin üzvləri ilə də görüşüblər. Görüşdə yəhudi icmasına Azərbaycanda yaradılmış şərait, Azərbaycan-Amerika münasibətləri müzakirə edilib, bu əlaqələrin inkişafında yəhudi icmasının rolu barədə fikir mübadiləsi aparılıb.

# Xocalı soyqırımının 23-cü ildönümü ilə bağlı anım mərasimi keçirilib



**Fevralın 22-də Ankarada İNDEX - Azərbaycanın İnsan Kapitalının İnkişafı Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü olan "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində Xocalı soyqırımının 23-cü ildönümünə həsr olunmuş anım mərasim keçirilib.**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, Türkiyə Prezidentinin Baş müşaviri İbrahim Kalın və digər rəsmi şəxslərin qatıldığı mərasimdə Azərbaycan və Türkiyə parlamentlərinin üzvləri, elm və mədəniyyət xadimləri, Ankarada təhsil alan tələbələr, ölkə ictimaiyyətinin bütün təbəqələrindən olan insanlar iştirak ediblər.

Əvvəlcə iştirakçılar tədbirin keçirildiyi "Congressium" Beynəlxalq Mərasimlər Mərkəzində Xocalı soyqırımını əks etdirən və Azərbaycanın dilbər guşəsi olan Qarabağa dair nadir fotolardan ibarət sərgilərə baxıblar. Xocalı soyqırımına dair sərginin keçirildiyi salonda Azərbaycana qarşı zaman–zaman törədilən işğalçılıq siyasətinin acı nəticələri ilə bağlı sənədli film nümayiş olunub.

Mərasimin rəsmi hissəsində İNDEX-in sədri Rəşad Abdullayev çıxış edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov mərasimdə çıxış edərək, Xocalı soyqırımının ermənilərin uzun illərdən bəri Azərbaycanda və Türkiyədə törətdikləri cinayətlərin ən dəhşətlisi olduğunu deyib. Əli Həsənov bildirib ki, işğalçı Ermənistanın keçmiş və hazırkı rəhbərləri müasir dünyanın gözü qarşısında həyata keçirilən bu hərbi cinayətdə iştiraklarını etiraf etməklə, hətta bundan qürur duyduqlarını bildirməklə, əslində sülhsevər dünya ictimaiyyətinə qarşı meydan oxuyurlar. Ermənistanın işğalçılıq siyasəti Azərbaycan xalqının dinc həyatına, mənəvi-psixoloji sabitliyinə, intellektual enerjisinə qarşı yönəldilmiş məqsədyönlü təcavüzdür.



Əli Həsənov diqqətə çatdırıb ki, hər il dünyanın ayrı-ayrı ölkələrində Xocalı soyqırımının ildönümü ilə bağlı minlərlə anım mərasimləri keçirilir, kitablar yazılır, filmlər çəkilir. Bundan məqsəd Azərbaycan xalqının uzun illər ərzində məruz qaldığı təcavüz barədə dünya ictimaiyyətini dolğun məlumatlandırmaq, erməni yalanlarını, o cümlədən "erməni soyqırımı" iddiasını ifşa etməkdir.

Türkiyə xalqının hər zaman Azərbaycan ilə həmrəy olduğunu bildirən Türkiyə Prezidentinin Baş müşaviri İbrahim Kalın qeyd edib ki, ölkəsi həm Türkiyə və Ermənistan, həm də Azərbaycan ilə Ermənistan arasında, o cümlədən bütün Qafqazda sülhün və əmin-amanlığın olmasını istəyir. Lakin bunun üçün ilk növbədə Ermənistan işğalçılıq siyasətindən əl çəkməli, azərbaycanlı qaçqın və məcburi köçkünlər doğma yurdlarına qayıtmalı, Azərbaycana və Türkiyəyə qarşı əsassız iddialara son qoyulmalıdır.

Xocalı soyqırımının ilk növbədə insanlığa qarşı törədilmiş hərbi cinayət olduğunu diqqətə çatdıran Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Necdət Ünüvar bildirib ki, dünya ictimaiyyətinin bu məsələyə biganə qalmağa mənəvi haqqı yoxdur.

Mərasim iştirakçıları Qarabağ bölgəsindən olan həmyerlimiz Rəşad Zeynallının çıxışını ürək sızıltısı ilə dinləyiblər.




Çıxış edənlər şəhidlərimizin ruhuna rəhmət diləyərək, əminliklə bildirdilər ki, dünya ictimaiyyəti tərəfindən Xocalı faciəsinin soyqırımı aktı kimi tanınması davam edəcək, Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumların Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına dair qərar və qətnamələri yerinə yetiriləcək.

Mərasimdən sonra Əli Həsənov media təmsilçilərinə geniş müsahibə verib.

# DAŞLAŞAN KƏDƏR



***Gündüz İSMAYILOV,***
***Dini Qurumlarla İş üzrə***
***Dövlət Komitəsinin sədr müavini***

Yer üzündə altı milyarddan çox insan yaşayır və **26 fevral** milyonlarla insan üçün adi günlərdən biri ola bilər. Lakin mənsubları dünyanın hər yerinə səpələnmiş 50 milyondan artıq Azərbaycan xalqı üçün **26 fevral** misli görülməmiş vəhşiliyin və qəddarlığın, zülm və zorakılığın – **XOCALI SOYRIRIMININ** tarixə yazıldığı gündür.

İllər, onilliklər, hətta yüzilliklər keçəcək; azərbaycanlı adını daşıyan və milli mənsubiyyətini dərk edən hər soydaşımız **26 fevralı** unutmayacaq, bu gündə ürəkdən sevinib, doyunca gülə bilməyəcək.

Yenə fevralın 26-da doğulanlar olacaq, amma onlar da Xocalı soyqırımından öncə həmin gündə dünyaya göz açmış soydaşlarımız kimi doğum günlərini 26-da yox, 25-də və ya 27-də qeyd edəcəklər. Beləcə, zaman keçdikcə **DAŞLAŞMIŞ KƏDƏRƏ ÇEVRİLƏN 26 FEVRAL** bizi hər il izləyərək, düşündürəcək və vicdanımıza hakim kəsiləcəkdir.

Kədər insanı müdrikləşdirir. Ortaq, ümummilli kədər isə xalqı birləşdirir və onu yaşamaq üçün müqavimət göstərməyə sövq edir. Bu baxımdan **26 fevral** təkcə adi hüzn deyil, həm də birliyimizə, milli kimliyimizin fərqinə varmağımıza, keçmiş barədə düşünüb, gələcək naminə savaşmağımıza qüdrət verən **MÜQƏDDƏS KƏDƏR**dir.

Bəzən özünü dərk etmək dostla düşmən arasından keçir. **26 fevral** həm də dostumuzla düşmənimizi tanıdığımız gündür.

Hər xalqın tarixində kədərli və qaranlıq səhifələr var. Xocalı soyqırımı dünyada yeganə faciə, Azərbaycan xalqı isə soyqırımına məruz qalmış yeganə xalq deyil. Amma təəssüf ki, Xocalı faciəsi böyük dövlətlərin, beynəlxalq təşkilatların, ümumilikdə dünya ictimaiyyətinin ən az diqqət göstərdikləri soyqırımı kimi tarixə düşüb.

Əslində, Xocalı soyqırımı təkcə Azərbaycan xalqına yox, bütün bəşəriyyətə qarşı törədilmiş dəhşətli cinayətdir. Deməli, ona münasibət bildirmək, müqəssirləri qınamaq, layiq olduqları cəzanı almaları üçün çalışmaq vicdanı itirməyən hər kəsin insanlıq borcudur. Bəşəriyyətin gələcəyi həm də insanların bu borcu nə dərəcədə yerinə yetirməsindən asılıdır. Çünki müqəssirin cəzalandırılmaması onun yeni cinayətlər törətməsinə şərait yaratmaq, hətta baş verəcək ağır cinayətlərə ortaq olmaq deməkdir.

Bu gün qondarma erməni soyqırımını həvəslə tanıyan, süni yaradılmış yazıq və kasıb erməni obrazına riyakarcasına inanan dünyanın super-gücləri Xocalıda sədası ərşə çıxan qoca, qadın, körpə naləsini eşitmək istəmirlər. Özünü korluğa və karlığa vuran, haqdan, ədalətdən dəm vuraraq, bəşəriyyətə "sülh" gətirmək adı altında dünyanın başına corab hörənlər bir ovuc erməninin ərköyün uşaq kimi nazını çəkirlər.

Yalançı ümid sabahın acı həqiqətidir. Dünyanı idarə edənlərin Xocalı soyqırımını öyrəndikdən sonra Xocalıya ədalət tələb edəcəklərinə inanmaq çətindir. Çünki erməninin nazını çəkənlər Xocalının dərdini çəkə bilməzlər. Deməli, Xocalı kimi onun dərdi də yalnız bizimdir: mənim, sənin, hamımızın. Onun dərmanı da özümüzdədir: birliyimiz və diriliyimizdə. Bu, həm də Xocalıya gedən yoldur.

**Xocalısız Xocalının dərdini çəkmək ağırdır.**
**Yola çıxaq, dərdimizə su səpək!..**



# Şeyxülislam Məkkədə beynəlxalq konfransda iştirak edib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanının Kralı, İki Müqəddəs Ocağın Xadimi Əlahəzrət Salman bin Əbdüləziz Al Səudun himayəsi ilə İslam Aləmi Liqasının "Terrorizmə qarşı mübarizə" mövzusunda təşkil etdiyi beynəlxalq konfransda iştirak etmək üçün fevralın 21-dən 24-dək Məkkədə səfərdə olub.**



QMİ-nin mətbuat xidmətindən verilən məlumata görə, Səudiyyə Ərəbistanı Kralının müşaviri, Məkkə quberniyasının əmiri Xalid Feysalın açdığı konfransda dünyanın bir çox ölkələrindən ali dini liderlər, İslam alimləri, dini işlər üzrə nazirlər və müxtəlif elm və beyin mərkəzlərinin rəhbərləri iştirak ediblər. İslam Aləmi Liqasının baş katibi Abdullah bin Əbdüllmühsin Əl-Türki konfransın mövzusunun aktuallığına toxunaraq, terrorizmin bütün dünyanı bürüyən bir bəla olduğunu, bu bəlanın qarşısının alınması üçün beynəlxalq ictimaiyyətlə yanaşı, bütün dinlərin əl-ələ verməli olduğunu vurğulayıb. İslamın terrora qarşı olduğunu söyləyən, Quran ayələrindən sitatlar gətirən Əl-Əzharın şeyxi Əhməd Əl-Tayyib isə bir sıra Qərb ölkələrinin terroru İslamla bağlamağa çalışdıqlarını qətiyyətlə pisləyib, Qərb ölkələrindən çox bu gün müsəlman dünyasının terrordan əziyyət çəkdiyini təəssüflə qeyd edib.

Səudiyyə Ərəbistanının Kralı, İki Müqəddəs Ocağın Xadimi Əlahəzrət Salman bin Əbdüləziz Al Səudun müraciətini konfrans iştirakçılarına oxuyan Məkkə əmiri Xalid əl-Feysal ölkəsinin beynəlxalq terrorizmə qarşı mübarizədəki rolundan danışıb. Səudiyyə Ərəbistanının "İŞİD" terrorçu qruplaşmasına qarşı beynəlxalq koalisiyada təmsil olunmasının buna nümunə olduğunu diqqətə çatdırıb.

Tədbirin açılışından sonra günün ikinci yarısında nümayəndə heyətlərinin rəhbərlərinin çıxışları dinlənilib.

Konfransda çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri şeyxülislam Allahşükür Paşazadə İslam dünyasının və bütün bəşəriyyətin kəskin ziddiyyətlər, qanlı olaylar və narahat gündəm yaşadığı bir dövrdə İslam Aləmi Liqasının belə bir konfransı təşkil etməsini məntiqi bir qərar kimi dəyərləndirərək minlərlə günahsız insanın məhv olduğu bir dönəmdə müsəlman dünyasının özünün sülh məramını bir daha bəşəriyyətə bəyan etməli olduğunu vurğulayıb.

Allahşükür Paşazadə bu gün dünyada, xüsusilə İslam coğrafiyasında müsəlmanların bir-birinin qanını axıtdığını məyusluqla qeyd edərək bildirib ki, eyni qibləyə namaz qılanların bir-birini kafir adlandıraraq qətlə yetirməsinin qarşısını almaq üçün İslam aləminin bütün nüfuzlu şəxsiyyətləri birləşməlidirlər.

Terror bəlasının Azərbaycan xalqından da yan keçmədiyini qeyd edən şeyxülislam Allahşükür Paşazadə XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımının erməni ekstremizmi və terrorunun aydın nümunəsi olduğunu konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Sonra Allahşükür Paşazadənin İslam Aləmi Liqasının baş katibi Abdullah bin Əbdüllmühsin Əl-Türki ilə görüşü olub. Görüşdə Azərbaycana səfərini məmnunluqla xatırlayan Əl-Türki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi ilə maraqlanıb, ölkəmizin bu istiqamətdəki haqlı mövqeyini bir daha dəstəklədiyini söyləyib. Bu günlərdə Azərbaycan xalqının Xocalı faciəsinin 23-cü ildönümünü qeyd etməyə hazırlaşdığını bildirən A. Paşazadə müsəlman dünyasının bu soyqırımına laqeyd qalmamasının vacibliyini diqqətə çatdırıb.

Daha sonra Allahşükür Paşazadə Əl-Əzharın şeyxi Əhməd Əl-Tayyib, İordaniyanın Baş Qazisi Məhəmməd Həlil, Küveyt Əmirinin dini işlər üzrə müşaviri Adil Fəlah, bir sıra ərəb və müsəlman ölkələrinin baş müftiləri və dini işlər nazirləri ilə görüşlər keçirib.

Görüşlərdə Allahşükür Paşazadəni ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri Rasim Rzayevin başçılığı ilə səfirliyin əməkdaşları müşayiət edib.

# Xocalı soyqırımının 23-cü ildönümü ilə əlaqədar Vyanada aksiya və yürüş keçirilib

**Avstriyada fəaliyyət göstərən Azərbaycan Akademik Birliyi fevralın 21-də Vyana şəhərinin mərkəzində yerləşən Ştefan meydanında Xocalı soyqırımının 23-cü ildönümü ilə əlaqədar kütləvi aksiya keçirib.**

Ştefan meydanında qurulan çadırda Xocalı soyqırımını və ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsi barədə gerçəklikləri əks etdirən müxtəlif dillərdə kitablar, broşürlər və digər informasiya materialları nümayiş etdirilib.

Tələbə cəmiyyətinin üzvləri üzərində "Xocalıya ədalət" yazılmış böyük ölçülü şüarla meydandan keçən insanların diqqətini aksiyaya yönəldiblər, eləcə də Heydər Əliyev Fondu tərəfindən buraxılmış informasiya materiallarını və almanca hazırlanmış vərəqələri yerli sakinlər arasında yayıblar. Cəmiyyətin fəalları aksiyaya maraq göstərən insanlarla söhbət edərək, Ermənistanın işğalçı siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətində yaşamağa məcbur olması, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, Azərbaycanın münaqişənin sülh yolu ilə həll olunmasında göstərdiyi səylərdən bəhs ediblər.

Meydanda quraşdırılmış ekranlarda Xocalı soyqırımı haqqında video və fotomateriallar, sənədli filmlər nümayiş olunub. Sonra tədbir iştirakçıları Vyana şəhərinin mərkəzi küçələri ilə Ştefan meydanından Avstriya parlamentinin önünə qədər yürüş ediblər. Şəhərin mərkəzi küçələri, Prezident Administrasiyası, Nazirlər Kabineti, bir sıra nazirliklər və mühüm dövlət strukturları yerləşən məhəllə və insanların gur hərəkət etdikləri küçələrlə gedən aksiya iştirakçıları Xocalı faciəsi haqda informasiya vərəqələrini sakinlərə paylayıblar. Tədbir Avstriya parlamenti önündə yekunlaşıb. Xocalı şəhidlərinin ruhunu sükutla yad edən aksiya iştirakçıları parlamentin önündəki meydanda şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq şam düzüblər.



# Yeni yaradılan "Kulturaplus" internet televiziyasının təqdimatı olub

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Yaradıcılıq Fondu və Bakı Slavyan Universitetinin təsis etdikləri "Mədəniyyət Plyus" İctimai Birliyinin nəzdində yaradılan "Kulturaplus" internet televiziyasının təqdimatı olub.**

Bununla bağlı keçirilən tədbirdə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev çıxış edərək Prezident İlham Əliyevin ölkəmizdə multikulturalizmin inkişaf etdirilməsi istiqamətində gördüyü işlərin bu ideyanın meydana gəlməsində əsas rol oynadığını deyib. Bildirilib ki, Azərbaycan bu gün çoxmillətli, çoxkonfessiyalı bir ölkə kimi bütün dünyanın diqqət mərkəzindədir. Azərbaycanda bütün dinlərin, millətlərin nümayəndələrinə diqqət eyni səviyyədədir. Elə multikulturalizmin əsas şərtlərindən biri də budur.

Dövlət müşaviri deyib ki, yeni yaranan internet televiziya vasitəsilə Azərbaycan həqiqətləri, ölkəmizdəki inkişaf prosesləri müxtəlif dillərdə dünya ictimaiyyətinə çatdırılacaq. Bu televiziya Azərbaycanın maarifçilik ənənələrinə uyğun olaraq keçmişimizi, milli mənəvi dəyərlərimizi, mədəni irsimizi öyrənməyi, multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin təbliğini qarşısına məqsəd qoyub.

Rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov deyib ki, bu gün Azərbaycan beynəlxalq aləmdə həyata keçirdiyi böyük layihələri ilə tanınır. Son 10 ildə Azərbaycan həm də regionun mənəvi mərkəzinə çevrilib. Ölkəmizdə hər il multikulturalizm, mədəniyyətlərarası dialoq və digər mövzularda beynəlxalq tədbirlərin keçirilməsi heç də təsadüfi deyil. Dünyanın bir çox yerlərində münaqişələr baş verir, ancaq Azərbaycanda fərqli dinlərin və millətlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayırlar.

Tədbirdə məlumat verilib ki, "Kulturaplus" internet televiziyasının əsas məqsədi dünyanın müxtəlif ölkələrində Azərbaycana olan münasibətin həmin ölkələrin cəmiyyətləri tərəfindən tənzim edilməsinə kömək etməkdir. Burada, eyni zamanda, dünya ictimaiyyəti üçün önəmli şəxsiyyətlərin – siyasətçilərin, incəsənət nümayəndələrinin və ictimai xadimlərin Azərbaycan haqqında fikirləri səslənəcək. Onlar Azərbaycana olan münasibətləri ilə dünyada Azərbaycan həqiqətlərinin daha effektiv şəkildə yayılmasını təmin edəcəklər.

İnternet televiziyada materiallar Azərbaycan, ingilis, rus və digər dillərdə yayılacaq. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin maddi-texniki dəstəyi ilə yaradılan televiziya dünyanın istənilən nöqtəsindən müraciət edə bilən və bu zaman dil baryeri ilə qarşılaşmayan auditoriya üçün açıq bir teleməkandır. Tamaşaçılar "Kulturaplus" televiziyasında həm Azərbaycan, həm də bütövlükdə dünya barədə maraqlı verilişlər izləyəcəklər.

İnternet televiziyanın fəaliyyətinə televiziya və mətbuat sahəsində kifayət qədər təcrübəsi olan və ictimaiyyət tərəfindən tanınan simalar cəlb edilib.

## SEMİNAR-TRENİNQLƏR

## "Dövlət və din münasibətləri"



**Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə hazırladığı tədbirlər planına əsasən, cəzaçəkmə müəssisələrində "Dövlət-din münasibətləri", "İslam əxlaqı", "Cəmiyyətdə dini dəyərlərin rolu" mövzularında treninqlər davam etdirilir.**

Növbəti belə tədbir Penitensiar xidmətin 9 saylı cəzaçəkmə müəssisəsində keçirilib. Treninqdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Cahandar Əlifzadə, Bakı Dövlət Universitetinin tarix fakültəsinin müəllimi, ilahiyyatçı Saleh Kazımov və Penitensiar xidmətin Baş idarəsinin məsul əməkdaşı ədliyyə mayoru Etibar Əzimov tədbirdə iştirak ediblər.

Dövlət Komitəsinin əməkdaşı C.Əlifzadə çıxışında dövlət-din münasibətlərinin tarixi, hüquq və sosial bazası haqqında məlumat verib. O bu sahədəki dövlət siyasətinin mahiyyəti, plan və perspektivləri ilə bağlı fikirlərini bölüşüb. Radikal dini cərəyanlar və onların fəaliyyətinin fəsadları barədə söhbət açan məruzəçi cəmiyyətdə dini maarifləndirmə işinin aparılmasının əhəmiyyətindən danışıb.

Daha sonra ilahiyyatçı S.Kazımov məruzə ilə çıxış edib.

Sonda iştirakçıların sualları cavablandırılıb və müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## "Cəmiyyətdə dini dəyərlərin rolu"



**Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə hazırladığı tədbirlər planına əsasən dini maarifləndirmə mövzusunda növbəti tədbir fevralı 12-də 2 saylı cəzaçəkmə müəssisəsində keçirilib.**

"Cəmiyyətdə dini dəyərlərin rolu" mövzusunda keçirilən tədbirdə Xəzər Universitetinin müəllimi, ilahiyyatçı Elmin Əliyevin mühazirəsi məhkumlar tərəfindən maraqla qarşılanıb və ona ünvanlanan çoxsaylı suallar ətraflı cavablandırılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məsləhətçisi Mahir Qəniyev və Penitensiar xidmətin Baş idarəsinin psixoloqu, ədliyyə mayoru Yaşar Şəkiyev tədbirdə iştirak ediblər.

## "Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər"

Xaçmaz Peşə Liseyində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Təhsil Nazirliyinin və Xaçmaz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər" mövzusunda tədbir keçirilib. Tədbir Xocalı şəhidlərinin ruhunun bir dəqiqəlik sükutla anılması ilə başlanıb.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şimal bölgəsi üzrə şöbə müdiri Eynulla Nurullayev çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi ilə Azərbaycanda hökm sürən xaosa son verildi. Eyni zamanda, din sahəsində müsbət mənada yaranan şəraitdən sui-istifadə edən qeyri-ənənəvi dinlərə və təriqətlərə qarşı adekvat addımlar atılmağa başlandı, əhalinin maariflənməsi ilə onların ölkədə şaxələnməsi və ölkə daxilində müxtəlif proseslərə mənfi təsir göstərmə meyillərinin qarşısı alındı.

Sonda Xaçmaz Rayon İcra Hakimiyyətinin məsul işçisi Yaqut Məsimova çıxış edərək bugünkü konfransın vacibliyini qeyd etdi.

# Din - əxlaqın sığortaçısı



Əxlaq fəlsəfəsində belə bir tezis mövcuddur ki, cəmiyyətdə insanların əxlaqi normalara əməl etməsi üçün onlar öncədən müəyyən dini müddəaları təsdiqləməlidirlər. Belə ki, əgər insanlar Allah və axirətin varlığına inanmasalar, bu zaman əxlaqi normalara əməl etməz və hər şeyə icazə verildiyini düşünərlər. Dostoyevskinin sözü ilə desək, "əgər Allah yoxdursa, hər şeyə icazə var".

Bu yanaşmaya əsasən, əxlaqi dəyərləri, normaları öyrənib, mənimsəmək onların cəmiyyətdə icra edilməsi üçün kafi sığorta rolunu oynamır. Burada yalnız din faktoru bu sığortanı təmin edə bilər.

Qeyd etdiyimiz yanaşma tərzi başqa bir formada Qədim Yunan fəlsəfəsində də müzakirə obyekti olmuşdur. Aristotel öz müəllimi Sokratdan fərqli olaraq, hesab edirdi ki, əxlaqi dəyərləri, normaları öyrənmək, bilmək onlara əməl etmək üçün yetərli şərt deyil. Çox vaxt insanlar bir işin səhv olduğunu bilə-bilə onu edir, yaxud bir əməlin doğru olduğunu bildikləri halda, ondan uzaq dururlar. Aristotelə görə, bunun əsas səbəbi iradə zəifliyidir. Deməli, filosofun fikrincə, insan hər hansı əxlaqi dəyəri, normanı bilsə belə, yalnız iradəsi güclü olduğu təqdirdə, əldə etdiyi bu biliyin tələbinə boyun əyər.

Zənnimizcə, problemə tamam başqa aspektdən yanaşmaq lazımdır. Bu isə "həqiqət" və "mənafe" anlayışlarında gizlidir. Bu iki faktor insanın bütün davranış və hərəkətlərinin əsas qaynağı sayılır, yəni insanı hərəkətə gətirən məhz həmin iki amildir. Deməli, insan hansısa addımı atırsa, bu, ya onun həqiqət olduğuna, ya da ondakı müəyyən mənafeyə görədir. Başqa sözlə desək, insan fitrən həqiqətsevər varlıq olduğundan nəyinsə həqiqət olduğunu bildiyi zaman ona təslim olur və onun tələbi əsasında hərəkət etməyə başlayır. Digər tərəfdən, insan fitrən özünüsevmə instinktinə malik olduğundan, daim öz mənafeyini nəzərə alır, zərərli gördüyü şeydən uzaqlaşmağa çalışır. Bir sözlə, özünüsevmə instinktinin altqurumu "həzz" anlayışıdır, bu anlayışın xammalını isə şəxsi mənafelər təşkil edir.

Bəzən həqiqət və mənafe faktoru üst-üstə düşərək bir-birini tamamlayır və vahid istiqamətdə hərəkət edirlər. Yəni insan həqiqət olaraq qəbul etdiyi şeydə mənafenin də olduğunu görür və bununla da, həqiqətin tələbi ilə mənafenin tələbi üst-üstə düşür. Bəzən isə həqiqət ilə mənafe bir-birilə toqquşur, yəni insanın həqiqət kimi qəbul etdiyi onu bir, mənafeləri isə tamam başqa istiqamətə aparır. Bu zaman insanların mövcud ziddiyyətə münasibəti eyni olmur. Belə ki, kimisi həqiqətsevərliyə meyil etdiyinə görə həqiqəti, kimisi isə mənafesevərliyi qabarıq olduğuna görə öz mənafeyinə üstünlük verir. Lakin reallığa baxdıqda, tarix boyu insanların əksəriyyəti bu gün də olduğu kimi ikinci qrupu təmsil ediblər, yəni onlarda öz mənafeyini güdmə instinkti həqiqətsevərliyə nisbətən daha aktiv olur.

Əxlaqi dəyərlər və normalar probleminə də məhz bu aspektdən yanaşmalıyıq. Vurğuladığımız kimi, insanların əxlaqi dəyərləri, normaları mənimsəməsi, bilməsi onları tətbiq etmək üçün yetərli olmur. Bu kimi insanlar həqiqətlə yanaşı, digər faktorun da axtarışındadırlar ki, bu da əxlaqi dəyərlərin, normaların onların mənafelərini təmin etməsindən ibarətdir. Din insana başa salır ki, əxlaqi normaların cəmiyyətdə tətbiqi axirətdə onun özü üçün sonsuz mənafelərin təmini deməkdir. İnsan əxlaqi dəyərlərə əməl etməklə Allah tərəfindən əbədi mükafata - Cənnətə layiq görülür. Bu dəyərləri tapdaladıqda isə onu cəza gözləyir. Dinin insan üçün təsvir etdiyi "mükafat-cəza" anlayışı insanın əsl mənafe saydığı əbədi səadət istiqamətində addımlamasına və onu bu istiqamətdən yayındıran hər bir əməldən uzaq durmasına səbəb olur. Bununla da, din əxlaqi dəyərlərin, normaların cəmiyyətdə icra edilməsi üçün lazımi sığorta rolunu oynaya bilir.

Burada təkidlə qeyd etməliyik ki, həqiqət ilə mənafe toqquşduqda din mənafenin tərəfini tutmur. Əksinə, insanlara başa salmağa çalışır ki, həqiqətə boyun əyməklə mənafelər də təmin olunur. Əslində, həqiqət özü insanın mənafeyi deməkdir, çünki o, əsla insanın mahiyyətinə, fitrətinə qarşı gələ bilməz. Deməli, ilk baxışdan həqiqətlə mənafe arasında ziddiyyət müşahidə olunursa, bu, ya zahiri, ya da həqiqətlə keçici dünyəvi mənafelər arasında yaranan ziddiyyətdir. Bu da o deməkdir ki, insan daim əbədi mənafelərinin ardınca getməlidir. Həqiqətin öz batinində ehtiva etdiyi mənafe də bu qəbildəndir. Başqa sözlə desək, din insanı mənafemərkəzli olmaqdan xilas edib, onu həqiqətmərkəzli olmağa dəvət edir. Dinin əsas missiyası da budur.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, yalnız din həqiqətlə mənafeni ortaq məxrəcə gətirə bilər. Din gerçəyini kənara qoysaq, dərhal həqiqətlə mənafe arasındakı çözülməz ziddiyyət problemi ilə üzüzə gələcəyik. Demək, problemin yeganə həlli Allah və axirət, ilahi mükafat və cəza anlayışlarının yaratdığı sığortalarda gizlidir.

***Emin İMANLI***

# Məktəbli "Tanrı"-ya görə cəzalandırıldı

ABŞ-ın Florida ştatında orta məktəb şagirdi səhər bildirişləri zamanı "Tanrım, Amerikanı qoru!" ifadəsini səsləndirdiyi üçün ateist təşkilatının şikayəti əsasında intizam məsuliyyətinə cəlb olunub.

"Fox News"-un yazdığına görə, Nassau dairə məktəbinin mətbuat katibi bildirib ki, orta məktəb şagirdi Yuli ənənəvi ifadəni səsləndirməklə təsdiqləmə ssenarisindən kənara çıxıb. Bunu eşidən iki ateist məktəbli "American Humanist Association"a müraciət ediblər. Onlar da öz növbəsində dairə məktəbi administrasiyasına məktub göndəriblər.

Ateistlərin sözlərinə görə, dövlət məktəbində günü xristian xeyir-duası ilə başlamaq yersiz və təhqiredicidir. Onlar Konstitusiyanın pozulmasını bəhanə gətirərək xristian ifadələrinin qadağan olunmasını tələb və məhkəməyə verməklə təhdid ediblər.

Məktəbin məsul şəxsi Nataşa Dreyk "American Humanist Association"a cavab məktubunda yazıb ki, həmin şagirdlə tərbiyəvi söhbət aparılıb və səhər bildirişlərinin hazırlanmasında onun imtiyazları əlindən alınıb.

# Malayziyada şəriətə uyğun indeks tətbiq edilib

Malayziyada cəmiyyətin İslam dininin əsas prinsipləri və şəriətin qayda-qanunları ilə nə dərəcədə uyğunluq təşkil etdiyini göstərən "şəriət indeksi" tətbiq ediləcək.

"Star" qəzetinin məlumatına əsasən, indeksin təntənəli təqdimat mərasimi ölkənin Baş naziri Nəcib Rəzzaqın iştirakı ilə Putracaya şəhərində baş tutub. O deyib ki, "şəriət indeksi" ölkənin daxili və xarici siyasətinin, o cümlədən iqtisadiyyat və ictimai institutlarının inkişaf səviyyəsinin İslam prinsiplərinə nə dərəcədə müvafiq gəldiyinin əsas indikatoru olacaq. Bildirilib ki, bu yeni göstərici ictimai-siyasi həyatın hüquqşünaslıq, iqtisadiyyat, təhsil, təsərrüfat infrastrukturu, ətraf mühit, səhiyyə, mədəniyyət, ölkənin daxili və xarici siyasəti kimi sahələrini şəriət prinsiplərinə uyğunluq məqsədilə qiymətləndirəcək.

"Şəriət indeksi"nin həyata keçirilməsi, o cümlədən göstəricilərinin analiz edilməsi işi ilə xüsusi yaradılmış dövlət komissiyası məşğul olacaq.



# İlaxır çərşənbələr



## Su çərşənbəsi

Taleyimizə təmənnasız bəxş olunan elə günlər və bayramlar var ki, onların təntənəsinə daxilən, ruhən həmişə hazır oluruq. Belə qədim və milli bayramlardan biri də hər il xüsusi həvəslə qeyd etdiyimiz NOVRUZdur. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan bu bayramdakı məram təzə ili, baharın ilk gününü qarşılamaqdan ibarətdir. Gecə ilə gündüzün bərabərləşdiyi vaxtdan qış bizimlə vidalaşır, yaz gəlir. Əslində, yazın, baharın ilk günü olan Novruz təbiətin canlanması, torpağın oyanması ilə müjdələyir bizi...

Novruz inancının təməlini dörd ünsür - su, od, yel və torpaq təşkil edir. Buna görə də xalqımız Novruz bayramını təntənəli şəkildə vaxtından bir ay əvvəldən başlayaraq, hər həftənin çərşənbə günlərini məntiqi ardıcıllıq olaraq Su, Od, Yel və Torpaq çərşənbələri adı ilə qeyd edirlər.

İnanca görə, birinci çərşənbədə qış əlaməti qar-buz əriyir, su mənbələri təzələnib aşıb-daşır. İkinci çərşənbədə Günəş torpağı qızdırır, növbəti çərşənbədə əsən yel oyanmış suyu, odu hərəkətə gətirir. Dördüncü çərşənbədə isə torpaq tam oyanır və insanlar ilk yaz əkini mərasiminə başlayırlar.

Xalqımızın təmtəraqlı şəkildə qeyd etdiyi çərşənbələrin birincisi su çərşənbəsidir. Ona "əzəli çərşənbə" də deyirlər. Bu çərşənbə qışın arxada qalmasının göstəricisidir. Çünki "kiçik çillə" öz yerini "boz ay"a verir və havalar, atalarımız demişkən, "ağara–bozara" düzəlməyə başlayır. İlk çərşənbənin adının su ilə əlaqələndirilməsi təsadüfi deyil. Ulularımız demişlər: "Sulu ev abad, susuz ev bərbad olar". Su - həyatın canlanmasına, təbiətin oyanmasına təkan verən başlıca qüvvələrdən biridir.

Qədim inanca əsasən, su çərşənbəsində Günəşin şəfəqdə göründüyü andan etibarən, su təzə və müqəddəs hesab edilir. Rəvayətə görə, bu vaxt suda yuyunanlar arzularına çatırlar.

Su çərşənbəsində dan yeri sökləndə insanlar çaya gedir, axar suda əllərini, üzlərini yuyur, suyun üzərindən hoppanaraq "ağırlığım-uğurluğum suya" – deyib, xəstəliklərin, mənfi enerjinin suya düşəcəyini və yeni ildə sağlam olacağını düşünürlər. Bu çərşənbədə stolun üstündəki suyun aşmasını xeyrə yozarlar. İnanca görə, süfrədəki suyun aşması həmin ilin bolluq içində keçəcəyinə işarədir.

Qızlar su ilə fala baxmaları da qədim inanclardandır. Onlar üzüklərini çıxararaq su ilə dolu qaba atar, üstünü örtdükdən sonra bayatı deməyə başlayarlar. Hər bayatının sonunda qabın içinə baxmadan bir üzük çıxarar və sahibinə verərlər. Digər inanca görə, nişanlı qızlar üzüklərini saçlarından qopardıqları telin ucuna bağlayıb, onu su ilə dolu qaba salıb-çıxararlar. Üzük qabın kənarlarına neçə dəfə dəyib səs çıxarsa, sahibi həmin yaşda evlənəcəkdir.

Su çərşənbəsi ilə bağlı adətlərdən biri də qızların iki iynəyə pambıq bağlayıb, suya salmaqla sevgililərinə nə vaxt qovuşacaqlarını öyrənməleridir. Əgər iynələrin hər ikisi eyni istiqamətə getsə, sevgililər qovuşacaqlar, əks halda, ümid yoxdur.

Su çərşənbəsində lal axan suyun üzərindən keçmək uğursuzluq əlaməti kimi qəbul edilər. Bu çərşənbədə övladı olmayan qadının başından qırxaçar qabla su tökülsə, övladının dünyaya gələcəyinə ümid edilər. Su çərşənbəsində insanların bir-birinə su çiləməsi də uğur gətirəcəyinə inanılan adətlərimizdəndir.

## Od çərşənbəsi

Od çərşənbəsi "Boz ayın" dörd müqəddəs çərşənbəsindən ikincisi hesab olunur. "Novruz"un əsas rəmzlərindən biri olan od uzun və soyuq qışdan sonra xalqın gözlədiyi istiliyi təmsil edir. Xalq arasında "üskü çərşənbəsi", "üskü gecəsi" kimi də işlədilir. Bu çərşənbə qədim görüşlərlə bağlı olub odu qoruyub saxlamaq inamına tapınma ilə əlaqədardır. Qədim dövrlərdə belə bir təsəvvür yaranmışdı ki, insanlar günəşi və odu nə qədər əzizləsələr, oxşasalar, təbiət də o qədər tez isinər.

İnanca görə, insanın yaradılışında iştirak edən dörd ünsürdən biri oddur. Odun qorunub saxlanması, əldə olunması və bununla insan həyatının dəyişməsi görüşləri od çərşənbəsində bu və ya digər şəkildə özünü əks etdirir. Od çərşənbəsi ilə bağlı ayinlər yaratmış xalqlar bu ayinləri gündəlik məişətlərində həyata keçirməklə yanaşı, eyni zamanda ilin axırıncı çərşənbəsində, ilin başa çatması, yeni əmək mövsümünün başlanması və təbiətin canlanması, istiliyin yenidən insanlara qayıtması görüşlərini qoruyub saxlamışlar.

Bu çərşənbədə ocaq çatılıb tonqal yandırılır və hər kəs onu üstündən atılaraq "Ağırlığım, uğurluğum oda tökül" - deyirlər. Bununla da ötən ildə ailələrində baş verən uğursuzluqları sanki odda yandırırlar. Bu, həmçinin odun müqəddəsliyini əks etdirir.

"Od çərşənbəsində baharın gəlişini qeyd etmək məqsədilə «Kos-kosa» kimi ənənəvi xalq oyunu keçirilir. Oyununun mənası qışın qovulması, yazın isə alqışla qarşılanmasıdır. Oyunda ömrünü başa vurmuş qışın simvolik obrazı kosa, yazın rəmzi isə keçidir. Burada kosa ilə keçi arasında gedən mübarizədə, sonda keçinin qalib gəlməsi yazın qış üzərində qalibiyyəti kimi təsəvvür edilir.

## Yel çərşənbəsi

Qədim inanca görə, bu çərşənbədə külək bütün dünyanı gəzib-dolaşaraq, oyanmış suyu və odu hərəkətə gətirir. Gün ərzində bir neçə dəfə istiqamətini dəyişməsi isə küləyin özünü təmizlənməsi kimi dəyərləndirilir. Əsrlərdən gəlmiş təsəvvürə görə, "Qara nəhrdə" yatmış Ağ yel, Qara yel, Xəzri və Gilavar Yer üzünə çıxır. Onların hərəsinin özünəməxsus rəngləri və mifik mənaları var. Ağ yel - ağ libasda, Qara yel - qara libasda, Xəzri - göy libasda, Gilavar isə qırmızı libasda təsvir edilir. Yel çərşənbəsində bu dörd külək nəzərdə tutulur və onların hamısının qısa müddətdə bütün dünyanı dolaşdığı bildirilir.

Yel çərşənbəsi həm də ilaxır çərşənbəyə hazırlıq deməkdir. Xalq arasında ona "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə" də deyirlər. Mifik düşüncəyə görə, Yel bələdçi rolunu yerinə yetirir. Həmçinin, o, "Yel baba" kimi də təsəvvür olunur. Yel baba yolunu azıb mənzilini tapmaqda çətinlik çəkən xeyirxah insanların qarşısına çıxır, onlara bir yumaq verir və onu yerə atıb, diyirlətməyi tələb edir. Onun üfürməsi ilə həmin yumaq açılaraq azmışlara yol göstərib, mənzil başına çatdırır.

Baharın gəlişi özünü son çərşənbələrdə daha çox büruzə verməyə başlayır. Məsələn, havaların dəyişməsi, durmadan həzin küləklərin əsməsi insan təsəvvüründə torpağın yavaş-yavaş oyanmasını canlandırır. Bu da əkinçiliklə və kənd təsərrüfatı ilə məşğul olanların həyatında sevindirici bayram təəssüratı oyadır.

Yel çərşənbəsi ulularımızın və müasirlərimizin həyata münasibətində, adət-ənənəmizdə öz əksini tapan bəzi fərqliliklərə görə digər çərşənbələrdən seçilir. Bu çərşənbədə xanımlar evdə təmizlik işlərinə başlayırlar. Yorğan-döşəklər havaya çıxarılır, təzə bahar nəfəsilə təravətləndirilər. Evəşikdəki əşyalar təmizlənir, xalça-palazlar çırpılır, pəncərə-şüşələr silinir və s.

Küləklə bağlı bir çox xalq deyimləri, nağmələr, atalar sözləri və məsəllər bu günədək yaşamaqdadır. Onlardan bəziləri belədir: "Yel üfürüb şişirtdiyini göyə qaldırar", "Yelin zarafatı qovmaqla başlar", "Yelə verdiyin düşmənə qismət olar", "Yelin işi elnən deyil, külnəndir", "Yel olmasa, sel də olmaz" və s.

## Torpaq çərşənbəsi

Baharın gəlişini bildirən çərşənbələr arasında təntənə ilə qeyd olunanı Torpaq çərşənbəsi el arasında "Boz ay"ın sonuncu çərşənbəsi kimi də dəyərləndirilir və ona "Yer çərşənbəsi", "İlaxır çərşənbə" də deyirlər. Bu çərşənbədə təbiət canlanır, ağaclar qış yuxusundan oyanaraq tumurcuqlamağa başlayır, el-oba əkinə hazırlaşır. Bir sözlə, yazın gəlişi xalqda işgüzarlığı artırır.

Xalq Torpaq çərşənbəsini spesifik xüsusiyyətlərinə və Novruz bayramına yaxın olduğuna görə xüsusi təntənə ilə qeyd edir. Bu çərşənbədə paxlava, şəkərbura, qoğal və bir çox şirniyyat hazırlanır, bayram süfrəsi bəzədilir. Şirniyyatların süfrəyə qoyulması ilin bərəkətli, ruzili və şirin keçməsinə işarədir. Ənənəyə görə, Torpaq çərşənbəsində süfrəyə acı və duzlu yeməklər qoyulmaz. Süfrəyə bərəkətli və məsələn, düyü, yarma, noxud kimi bişirdikdə artan ərzaqlardan hazırlanan yeməklər düzülür. Qədim inanca görə, İlaxır çərşənbədə bərəkət sayılan nemətləri - duz, od, çörək və suyu başqasına vermək olmaz.

Bayram xonçasının ortasına səməni qoyulur, ətrafı isə boyanmış yumurta, həmçinin qoz, fındıq, badam kimi çərəz növləri ilə bəzədilir. Novruz bayramının rəmzlərindən sayılan və əvvəlki çərşənbələrdən cücərdilən səməni İlaxır çərşənbədə tam göyərir. Rəvayətə görə, səməni qoyulanda niyyət edilibsə, arzu-diləyinin çin olacağı axır çərşənbədə bilinəcək. Yəni səməni yaxşı göyərərsə, arzular həyata keçəcək.

Torpaq çərşənbəsi çərşənbələrin xalq ayinləri, oyun və şənlikləri ilə də ən zəngin olanıdır. Çünki bu günün mərasimləri həm su, od və yelə, həm də torpağa inancı əks etdirir. Bu çərşənbədə müxtəlif ayinlər icra edilir, nəğmələr, bayatılar oxunur. Adətən, mərasimlər səhər tezdən başlayır və gecəyədək davam edir. İlaxır çərşənbənin axşam şənlikləri daha maraqlı keçir: bacalardan torbalar sallanır, papaq atılır, qapı pusulur, evlərdə şamlar yandırılır və s.

Sonuncu çərşənbə günü də digər çərşənbələrdə olduğu kimi, tonqallar qalanır. Lakin bu çərşənbənin tonqalları digərlərindən fərqlənir. Çünki həmin gün tonqal qalamaq mərasimi daha təmtəraqla keçirilir.

Adətə görə, Torpaq çərşənbəsində hamı evində olmalıdır. Övladlar onlardan ayrı yaşayan valideynlərinə baş çəkərək öz evlərinə qayıtmalıdırlar.

Torpaq və Torpaq çərşənbəsi ilə bağlı bir çox atalar sözü, bayatı, oxşama və inanc da vardır: "Torpağa xor baxsan, o sənə kor baxar", "Torpağa əyilən namərdə əyilməz", "Axır çərşənbə axşamı küsülülər barışarlar", "İlaxır çərşənbə gecəsi bəd danışmaq olmaz" və s.

*Sadiq MİRZƏYEV*

# Fərqli fikirlərə yanaşma tərzi



Tarix boyu İslam alimləri, eləcə də dindarlar arasında müxtəlif mövzularla bağlı fikirayrılığı mövcud olmuş, bəzən xırda bir məsələ ilə bağlı ortaya çıxan ixtilaf nəticəsində acınacaqlı hadisələr (haqsız ittiham, böhtan, yalan, iftira, şantaj və hətta qətl kimi hallar) baş vermişdir. İslam ümmətinin hər problemi üçün həll yolu təqdim edən Qurani-Kərim bu sahədə də bir sıra yollar göstərmişdir. Bu yazıda Quran ayələrini rəhbər tutaraq fərqli fikirlərə doğru yanaşma tərzini təqdim etmək istərdik:

**1. Ədalət və insaf prinsipini unutmamaq**

Fərqli fikirlərə sahib alimin baxışlarını nəzərdən keçirərkən onun təqdim etdiyi fikirlərdən hər hansı biri səhv olarsa, bu, onun bütün fikirlərinin yanlışlığına dəlalət etməz. İslam elmləri sahəsində bir çox işlərə imza atmış hər hansı alimin müəyyən fikrinə görə digər xidmətlərinin üzərindən asanlıqla xətt çəkib, onu dəyərdən salmaq ilk növbədə Quran təlimlərinə ziddir. Müqəddəs Kitabımız bizə belə buyurur: **"...Söz söylədiyiniz zaman (lehinə və ya əleyhinə danışdığınız adam) qohumunuz olsa belə, ədalətli olun..."** (Ənam, 152).

Bu ayə İslam ümmətinə buyurulmuş, ancaq ümmət tərəfindən unudulmuş mühüm göstərişlərdən biridir. Odur ki, ayəni rəhbər tutaraq hər zaman ədalətli olmağa çalışmalıyıq. Ədalətli danışmaq isə yaxşını yaxşı, pisi pis görməkdir. Bir və ya bir neçə səhvə görə bütün yaxşılıqları unutmaq və kölgə altına almaq ədalət prinsipi ilə ziddir.

**2. Alimlərin səhvsiz-qüsursuz olmaması**

Hər zaman unutduğumuz bir məqam var: alimlərin məsum, xətadan uzaq olmaması. İstənilən din alimi və ilahiyyatçının səhvi ola bilər. Heç kim səhvdən sığortalanmayıb. İndiyədək heç xətaya yol verməyən din alimi göstərə bilərsinizmi? Ancaq istənilən halda, bir xətaları ucbatından bütün dəyərli fikirlərini kənara atmaq düzgün yanaşma tərzi sayılmır. Üstəlik, dinimizin əsas göstərişlərindən biri də budur ki, "İnsanın özünə (şəxsiyyətinə və kimliyinə) deyil, nə söylədiyinə fikir verin!"

**3. Bütün sözləri dinləmək və onların ən yaxşısına uymaq prinsipi**

Quranın buyruğuna əsasən, biz hər bir sözü, fikri dinləməli və onların arasından ən yaxşısını seçməliyik. Belə ki, Müqəddəs Kitabımızda bildirilir: "O kəslər ki, sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!" (Zumər, 18).

**4. Əxlaq və etika qaydalarından kənara çıxmamaq**

İstənilən sahədə mövcud olan fərqli fikirlərə görə hər hansı alim barədə həqarətli danışmaq, onu təhqir etmək İslam prinsiplərinə uyğun gəlmir. Qurani-Kərim müsəlmanları dindar olmayan kəsimlə belə, gözəl tərzdə danışmağa səsləyir. Məsələn, "Nəhl" surəsinin 125-ci ayəsində Allah-Təala Peyğəmbərə (s) müraciətlə belə buyurur: "(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!"

Əgər Quranın göstərişinə əsasən, qeyri-müsəlmanlarla belə, ən gözəl tərzdə mübahisə etmək fərzdirsə, onda İslam yolunda uzun müddət zəhmət çəkmiş və dəyərli tədqiqatlar aparmış müsəlman alimlə necə davranmalıyıq? Burada xüsusilə vurğulamaq istərdim ki, hər hansı din alimini düşüncələrinə görə tənqid etmək üçün onun səviyyəsində biliyə sahib olmaq lazımdır.

**5. Fikirayrılığından qorxmamaq**

Cəmiyyətdə fərqli fikirlərin təqdimatına gəlincə, bu, bizi qorxuya salmamalıdır.

Yuxarıda da qeyd etdiyimiz kimi, əsas məsələ fərqli fikirlər arasından daha yaxşısını seçmək və ona itaət etməkdir. "Zumər" surəsinin 18-ci ayəsi də bunu təsdiqləyir. Bu ayə İslam dinində demokratiya və söz azadlığına sayğılı münasibətinin göstəricisidir. Həmin ayəyə əsasən, insan istənilən mövzu ilə bağlı müxtəlif fikir və baxışlarla azad şəkildə tanış olmalı, sonda onların ən yaxşısına uymalıdır. Bu, həm də ayənin sonunda buyurulduğu kimi, ağıl sahiblərinin həyat tərzidir.

Kimsə cəmiyyətdə fərqli fikirlərin səslənməsinə görə narahat olmamalıdır. Bununla cəmiyyətin siyasi, ictimai və dini sabitliyi də pozulmaz. Əksinə, malik olduğumuz etiqad və baxışların tutarlı dəlili varsa, fərqli fikirlər və onların sahibini ləkələmək əvəzinə, həmin fikirləri elm, məntiq və etika çərçivəsində araşdırıb insanlara təqdim etmək lazımdır.

**6. Ölkəmizdə fikir və söz azadlığı**

Fikir və söz azadlığına Azərbaycan Respublikasının qanunvericiliyində xüsusi yer verilib. Doğma vətənimizdə irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqat və təbliğata yol verilmir. Bu, ölkəmizin Konstitusiyasında və digər qanunvericilik aktlarında təsbit edilmişdir.

**7. Alimlərin hörmətini qorumaq**

Din alimlərinin hörmətini saxlamaq hamının, xüsusilə də inanclıların və din sahəsində çalışanların borcudur. Çünki bu şəxslərin hər hansı alimi həqarət etməsi cəmiyyətdə belə bir qeyri-etik davranışın rəvac tapmasına şərait yaradar. Digər tərəfdən, hər halda, təhqir edilən alimin də tərəfdarları, ardıcılları olur. Onların da arasından kimsə durub, təhqir edən şəxsin hörmət bəslədiyi alimin ünvanına həqarətli söz desə, ciddi qarşıdurma yaranacaq ki, bunun da əsl səbəbkarı və müqəssiri ilk dəfə təhqirə keçən şəxs olacaqdır. Necə deyərlər: "Evi şüşədən olan şəxs başqasının pəncərəsinə daş atmaz!"



***İlqar İSMAYILZADƏ,***
***ilahiyyat elmləri doktoru***
***ilqar_ismayilzade@yahoo.com***

# İŞİD yaraqlıları İraqdakı qədim məscidlərdən birini partladıblar

İraq ərazisindəki tarixi tikililərdən biri olan əl-Fərrux məscidi İŞİD qruplaşmasının yaraqlıları tərəfindən partladılıb.

İraqın Ənbar əyalətinin administrasiyasının nümayəndəsi Süleyman əl-Qabsi məscidin maksimum dağılmasına nail olmaq üçün yaraqlıların tikilinin bütün parametri boyu partladıcı yerləşdirdiklərini deyib. Onun sözlərinə görə, partlayış nəticəsində məscid təməlinə qədər dağılıb.

Ənbar əyalətində ər-Ramadi şəhərindən 90 kilometr qərbdə yerləşən əl-Fərrux məscidinin əsası VII əsrin birinci yarısında xəlifə Ömər ibn əl-Xəttabın hakimiyyəti dövründə qoyulmuş və onun şərəfinə adlandırılmışdı. İndiyədək dəfələrlə bərpa edilən məscid son zamanlara qədər əyalət rəhbərliyinin xüsusi hesabında olub.

İraqın turizm və tarixi abidələr nazirliyinin məlumatına əsasən, İŞİD-in nəzarətində olan ərazilərdə son bir il ərzində 30-a yaxın tarixi əhəmiyyət daşıyan dini tikili məhv edilib. Onların arasında Mosul şəhərində yerləşən Yunus peyğəmbərin məscidi də var.

# ABŞ-da qadınlar üçün məscid açılıb



"Islam-today.ru"-nun məlumatına görə, ABŞ-da qadınlar üçün nəzərdə tutulmuş ilk məscid açılıb. Ölkənin müxtəlif yerlərindən 150-dən çox müsəlman qadın bu tarixi hadisədə iştirak etmək üçün Los-Ancelesə gəlib. Məscid əvvəllər sinaqoq olmuş, hazırda isə çoxkonfessiyalı mərkəzə çevrilmiş məkanın tərkibinə daxildir. Burada namazı da qadın imam qıldıracaq. Amerika-İslam əlaqələri üzrə Şuranın nümayəndələri hesab edirlər ki, bəzi müsəlmanlar daha çox qadının İslama cəlb olunması üçün seqreqasiya yolu ilə inteqrasiya tərəfdarıdırlar.

"Məscid müsəlman icmasının bütün üzvlərinin, kişilərin və qadınların özlərini evlərindəki kimi hiss etməli olduqları ibadət yeridir", - deyə Şuranın nümayəndəsi Hissam Ayluş bildirib.

ABŞ-da müsəlman qadınlar üçün nəzərdə tutulan bu yeganə məscidin əsasını qoyan 29 yaşlı Həsnə Məznəvi deyib: "Biz sadəcə istəyirdik ki, qadınların ilham ala və xütbələri dinləyə bilmələri üçün təhlükəsiz yerləri olsun".

Onun sözlərinə görə, yeni məscid qadınlara sərhədsiz, azad ünsiyyət şansı verəcək.

# Dini qurumların dövlət reyestr məlumatı

## *Təsis sənədlərində dəyişikliklər olunmuş dini icmalar*

**Mingəçevir şəhəri Mingəçevir kəndi "Cümə" məscidi dini icması**

**Qeydiyyat tarixi:** 17 iyun 2010-cu il
**Qeydiyyat №-si:** 100110A3 – 413
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Qurbanov Fazil Qurbanəli oğlu, İsmayılov İsməd Həsrət oğlu, Məmmədov Elşən Ramiz oğlu, Mustafayev Valeh İsmayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar, Abdullayev Nizami Meydan oğlu, Cəlilov Müslüm Məmməd oğlu, Ramazanov Vaqif Zülfüqar oğlu, Bayramov Namət Qaraş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Əliyev Allahverdi Zülfiqar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Yusifov Yusif Dosməmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi:** 26 dekabr 2014-cü il

**Oğuz şəhəri "Cümə" məscidi dini icması**

**Qeydiyyat tarixi:** 14 aprel 2010-cu il
**Qeydiyyat №-si:** 100110A2 – 282
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Salamov Əhməd Hidayət oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Dəyişikliklərin qeydiyyat tarixi:** 08 yanvar 2015-ci il

**Lerik rayonu Gürdəsər kənd məscidi dini icması**

**Qeydiyyat tarixi:** 15 fevral 2012-ci il
**Qeydiyyat №-si:** 100112A1 – 545
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Ağayev Yəhya Tağı oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır. Ağayev Yəhya Tağı oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Kişiyev Rafiq Şirvan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi:** 07 yanvar 2015-ci il

**Saatlı rayonu Günəşli kənd məscidi (1) dini icması**

**Qeydiyyat tarixi:** 07 may 2010-cu il
**Qeydiyyat №-si:** 100110A2 – 340
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Alizarov Faxmi XXX və Alizarov Murat XXX dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar, Mavlyudov Tursunjan Qilmanoviç, Əlizarov Mustafa Fəhmiyeviç, Saydulov Muxammad Ziyəddin oğlu, Maxramov Mustafa Şaismailoviç, Qədirov Adil Zakariyayeviç, Dovkarov Muxammadjon Raximoviç, İbrəhimov Əlisəfa Mustafa oğlu, İsayev İlyas Kamiloviç, Paşaliyev Aslan Mamed oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi:** 08 yanvar 2015-ci il

**Şamaxı rayonu Birinci Çaylı kəndi "Cümə" məscidi dini icması**

**Qeydiyyat tarixi:** 24 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A3 – 126
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Piriyev Mülkəsahab Canqi oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Fərzəliyev Səbzalı İsaq oğlu, Nağıyev Ağaismayıl Xeyrulla oğlu, Eyvazov Babaqədir Əbil oğlu, Nəbiyev Zakir Məmmədnəbi oğlu, Cəbrayılov Azadxan Azad oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi:** 08 yanvar 2015-ci il

**Sumqayıt şəhəri Sumqayıt stansiyası yaşayış massivi məscidi "Vəhdət" dini icması**

**Qeydiyyat tarixi:** 31 may 2010-cu il
**Qeydiyyat №-si:** 100110A3 – 390
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Məmmədov Müslüm Ağasəf oğlu, Cabarov Soltan Hüseynağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar, Abdullayev Əlisalam Əgdər oğlu, Qafarov Səbuhi Əbülfət oğlu, Şahverdiyev Soltanhəmid Cavanşir oğlu, Şahverdiyev Bəxtiyar Cavanşir oğlu, Qədimov Neymət Xasbulat oğlu, Əmrəliyev Anar Həzrətqulu oğlu, Məmmədov Nicat Elşad oğlu, Nəzərov Alik Fərəməz oğlu, Hacıyev Ziyad Güləddin oğlu, Həmidov Ərzuman Valeh oğlu, Hümbətov Razi Karrar oğlu, İsayev Elçin Telman oğlu, Qafarov Üzeyir Əbülfət oğlu, Şahbazov Əzizxan Qurban oğlu, Hilalbəyli Rizvan Fəxrəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi:** 08 yanvar 2015-ci il

**İmişli rayonu Aranlı kəndi İmam Əli adına "Cümə" məscidi dini icması**

**Qeydiyyat tarixi:** 01 iyul 2011-ci il
**Qeydiyyat №-si:** 100111A1 –542-15
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Qasımov Sərxoş Səfər oğlu və Məlikov Əfrəstun Sərxoş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar, Əliyev İsrayıl Cəbrayıl oğlu, İbrahimov Hafis Həşim oğlu, Vəliyev Qardaşalı Mahmud oğlu, Məmmədov Ərəstun Əmrah oğlu, Kərimov Anar Ələkbər oğlu, Qənbərəlıyev Bayraməli Tağı oğlu, Kərimov Vüqar Şahin oğlu, Quliyev Qardaşəli Məmmədhüseyn oğlu, Kərimov Kərim Xeyrulla oğlu, İbayev Fəyyaz Əzim oğlu, Fərəcova İlhamə Xeyrulla qızı, Kərimova Kəmalə Maarif qızı, Zeynalov Təvəkgül Məhəmməd oğlu, Abdullayev Səməd Yaşar oğlu, Zeynalov Yalçın Təvəkgül oğlu, Ələkbərov Firdovsi Lazım oğlu, Kərimova Nazənim Yavər qızı, Şıxaliyev Sədulla Məhəmməd oğlu, Fərəcli Sevinc Sərxoş qızı, Quliyev Əkbər Hacıbala oğlu, Qasımov Qasım Sərxoş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. İmişli rayonu Aranlı kənd məscidi dini icmasının adı dəyişdirilərək İmişli rayonu Aranlı kəndi İmam Əli adına "Cümə" məscidi dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi:** 08 yanvar 2015-ci il

**Sabirabad rayonu Kürkəndi kəndi "Zəhra" məscidi dini icması**

**Qeydiyyat tarixi:** 17 may 2011-ci il
**Qeydiyyat №-si:** 100111A1 – 514
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Sultanov Zeynal Ocaqqulu oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əliyev Bəxtiyar Bayram oğlu, Əliyev Asif Balaxan oğlu, Nərimanov Adil Qəhrəman oğlu, Əsədullayev Ramiz Salman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Sultanov Zeynal Ocaqqulu oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Şirəliyev Feyruz Behbud oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi:** 08 yanvar 2015-ci il

**Qəbələ şəhər dindarlarının məscidi dini icması**

**Qeydiyyat tarixi:** 01 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A2 – 45
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Aslanov Həzi Kamran oğlu, Qayıbov Şahid Xanlar oğlu, Soltanov Rövşən Sədri oğlu, Zülfiqarov Məzahir Zülfiqar oğlu, Babaşov Saleh Zubeyir oğlu, Kərimov Mahir Məhəmmədiyə oğlu, Məsimov Məsim Mənsur oğlu, Arzumanov Hidayət Rafiq oğlu, Atayev Azad Baxtiyar oğlu, Allahverdiyev Cavid Etibar oğlu, Atayev Araz Baxtiyar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi :** 08 yanvar 2015-ci il

**Qəbələ şəhər dindarlarının məscidi dini icması**

**Qeydiyyat tarixi:** 01 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A2 – 45
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən, Bakı şəhəri Əzizbəyov rayonu Türkan qəsəbəsi "İmam Hüseyn" məscidi dini icmasının adı dəyişdirilərək Bakı şəhəri Xəzər rayonu Türkan qəsəbəsi "İmam Hüseyn" məscidi dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Həmçinin dini icmanın hüquqi ünvanı dəyişdirilərək Bakı şəhəri, Xəzər rayonu, Türkan qəsəbəsi, Xanlar küçəsi, 31a, "İmam Hüseyn" məscidi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi:** 08 yanvar 2015-ci il

### ELAN

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində** dövlət qeydiyyatına alınmış **Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının 100109A2-03 nömrəli, 15 oktyabr 2009-cu il tarixli nizamnaməsi** itirildiyinə görə etibarsız sayılır.

* * *

**İsmayıllı rayonu Kürdmaşı kənd dini icmasının (19.03.2003-cü ildə 168 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 17.01.2015-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.**

* * *

**Oğuz rayonu Dəymədağlı kənd dini icmasının (25.01.2002-ci ildə 26 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 06.02.2015-ci il tarixli ümumi yığıncağında 03 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.**

* * *

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən **17.10.1997-ci ildə 77 nömrəli şəhadətnamə** ilə dövlət qeydiyyatına alınmış **Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsində** fəaliyyət göstərən **"Fatimeyi-Zəhra" adına məscidin** dindarlarının dini icmasının Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin iddiası ilə ləğv edilməsi barədə **2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 25.02.2014-cü il tarixli, 2(82)-765/2014 saylı qətnaməsi, Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 04.06.2014-cü il tarixli, 2-2(103)-275/14 saylı qətnaməsi və Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 12.11.2014-cü il tarixli, 2-2(102)-332/14 saylı qərarına** əsasən ləğv olunmuşdur.

# Nə üçün gələcəyimiz kitablardan asılıdır?



***Məşhur ingilis yazıçı-fantastı Nil Geymanın bədii ədəbiyyat oxumağın önəmi barədə mühazirəsi** (ixtisarla)*

**İnsanlara kimin tərəfində olduqlarını anlatmaq lazımdır. Bir növ, maraqların bəyanatı, deklarasiyası kimi. Beləliklə, mən sizinlə mütaliə barəsində danışmaq istəyirəm - bədii ədəbiyyat oxumağın, həzlə mütaliə etməyin insan həyatındakı ən mühüm şeylərdən biri olduğu barədə.**

Görünür, mən olduqca tərəfgirlik edirəm, axı yazıçıyam, bədii mətnlərin müəllifiyəm, həm balacalar, həm də böyüklər üçün yazıram. Artıq 30 ilə yaxındır ki, mən sözlərin köməyi ilə nələrisə yaradaraq və onları yazaraq dolanışığımı təmin edirəm. Şübhəsiz ki, insanların kitab oxuması, bədii kitablar oxuması, kitabxanaların və kitabxanaçıların var olması və onların mütaliəyə sevgiyə imkan yaratması, həm də kitabları oxuyacaq yerlərin mövcud olması mənim maraq dairəmdədir.

Odur ki, mən həm yazıçı həm də buna maraqlıyam. Ancaq daha çox oxucu kimi buna maraqlıyam.

Bir dəfə Nyu-Yorkda idim və özəl həbsxanaların tikintisi barədə söhbətlər eşitdim. Bu, Amerikada ildırım sürəti ilə inkişaf edən sənaye sahəsidir. Həbsxana sənayesi gələcək artımını planlaşdırmalıdır: onlara nə qədər kamera lazım olacaq? 15 il sonra dustaqların sayı nə qədər olacaq? Və onlar müəyyən etdilər ki, bütün bunları çox asan yolla qabaqcadan deyə bilərlər – 10-11 yaşlılar arasında oxuma bilməyənlərin faizini müəyyənləşdirən sorğuya əsaslanan sadə alqoritmlərin köməyi ilə. Və əlbəttə, onlar kefləri istədiyi üçün oxumağı bilmirlər.

Bunlar arasında birbaşa əlaqə yoxdur, demək olmaz ki, təhsilli cəmiyyətdə cinayətlər baş vermir. Lakin faktorlar arasında qarşılıqlı əlaqənin olduğu gözə çarpandır.

Bədii ədəbiyyatın iki vəzifəsi var: birincisi, o, sizin mütaliədən asılılığınızı ifşa edir. Daha nələrin baş verəcəyini öyrənmək həvəsi, səhifəni çevirmək arzusu, əsərdə kiminsə başına fəlakət gəldiyi üçün ağır olsa belə, bütün bunların nə ilə bitəcəyini öyrənmək məqsədilə davam etmək ehtiyacı... bunların hamısında əsl həyəcan var. Bütün bunlar yeni sözlər öyrənməyə, başqa cür düşünməyə, irəliyə doğru hərəkət etməyə vadar edir. Kitab oxumağın özlüyündə həzz olduğunu bir dəfə aşkar etməklə siz daimi mütaliə yoluna qədəm qoyacaqsınız.

Savadlı uşaqlar yetişdirməyin ən yaxşı yolu onlara oxumağı öyrətmək və bunun gözəl bir əyləncə olduğunu göstərməkdir. Ən sadəsi, onların xoşuna gələn kitabları tapın, bu kitabları onlar üçün əlçatan edin və onları oxumaqlarına imkan yaradın.

İkincisi, bədii ədəbiyyat insanda empatiya yaradır. Empatiya insanları bir yerə toplayan və insanın özünü özünəvurğun tənhalar kimi aparmasına mane olan vasitədir.

Siz televiziya proqramı və ya filmə baxarkən başqa insanların başına gələnləri izləyirsiniz. Bədii əsər hərflərdən və durğu işarələrindən istifadə edərək əmələ gəlir. Və yalnız siz özünüz öz təxəyyülünüzü işə salaraq bir dünya yaradır, orada məskunlaşır və ətrafa digərlərinin gözü ilə tamaşa edirsiniz. Siz əşyaları duymağa, heç vaxt tanıma imkanınız olmayacaq yerləri və dünyaları ziyarət etməyə başlayırsınız. Tamam başqa biri olursunuz, öz dünyanıza qayıtdıqda isə sizdə az da olsa, nəsə dəyişəcəkdir.

2007-ci ildə mən Çində elmi fantastika və fentezi üzrə partiyanın dəstəklədiyi birinci konventdə iştirak edirdim. Bir anlıq mən hökumətin rəsmi nümayəndəsindən soruşdum: "Nə üçün? Axı elmi fantastika uzun müddət bəyənilməyib. İndi nə dəyişib?"

"Hər şey çox sadədir", - deyə o cavab verdi. "Çinlilər onlara sxemlər verildikdə bunlardan möhtəşəm şeylər hazırlayırdılar. Ancaq özləri heç nəyi təkmilləşdirmir və nəsə icad etmirdilər. Onlar heç nə ixtira etmirdilər. Buna görə də onlar ABŞ-a - "Apple"-a, "Microsoft"-a, "Google"-a nümayəndə heyəti göndərdilər və onların özləri barədə gələcəyi düşünən insanlardan soruşub öyrəndilər. Və müəyyən etdilər ki, onlar balaca ikən elmi fantastika oxuyurmuşlar".

Ədəbiyyat sizə başqa dünyanı göstərə bilər. Sizi heç vaxt olmadığınız yerlərə apara bilər. Sehrli meyvələrin dadına baxanlar kimi bir dəfə başqa dünyalara səyahət etdikdən sonra siz böyüyüb, boya-başa çatdığınız dünyadan artıq heç vaxt bütünlüklə razı qalmayacaqsınız. Narazılıq yaxşı şeydir. Narazı insanlar öz dünyalarını dəyişə və yaxşılaşdıra bilərlər.

Uşaqların mütaliəyə sevgisini məhv etməyin yollarından biri,



əlbəttə, ətrafında kitabların olmamasına əminlikdir. Və uşaqların kitabları oxuya biləcəkləri yerlərin olmaması. Mənim bəxtim gətirib. Böyüdüyüm dövrdə bizdə möhtəşəm rayon kitabxanası vardı.

Kitabxanalar azadlıq deməkdir. Oxumaq azadlığı, ünsiyyət azadlığı. O, (məktəb və universiteti tərk etdiyimiz gün bitməyən) təhsildir, asudə vaxtdır, sığınacaqdır və informasiyaya girişdir. Düşünürəm ki, burada əsas məsələ informasiyanın təbiətindədir. İnformasiyanın müəyyən dəyəri var, doğru informasiya isə qiymətsizdir.

Bəşər tarixi boyu biz informasiya çatışmazlığı dövrlərində yaşamışıq. Son illər isə informasiya çatışmazlığından xilas olub, informasiya toxluğuna yaxınlaşmışıq. "Google"-un əməkdaşı Erik Şmidtin sözlərinə görə, bu gün hər iki gündən bir insan irqinin istehsal etdiyi informasiya sivilizasiyanın başlanğıcından 2003-cü ilə qədər istehsal olunan informasiyaya bərabərdir. Hazırda əsas məqsəd səhrada nadir çiçək axtarmaqdan ibarət deyil, əsas məqsəd cəngəlliklərdə konkret bitkini axtarıb tapmaqdır. Bu qədər informasiyanın arasında bizə həqiqətən lazım olanını tapmaq üçün naviqasiyanın köməyinə ehtiyacımız var.

Kitabxanalar insanların informasiya əldə etmək üçün gəldikləri yerdir. Kitablar informasiya aysberqinin yalnız yuxarı hissəsidir; onlar oradadır və kitabxanaçılar azad və qanuni şəkildə sizi kitablarla təmin edə bilərlər. Kitabxanalar həm də kompüteri, internetə çıxışı olmayan insanların şəbəkəyə qoşula bildikləri yerdir. Bu, iş axtardığımız, xülasə göndərdiyimiz, təqaüdü rəsmiləşdirdiyimiz zamanlarda olduqca mühümdür. Kitabxanaçılar həmin adamların dünyada istiqamət almasına kömək edə bilərlər.

Kitabxanalar gələcəyə qapıdır. Kitablar dünyasını dəyişənlərlə ünsiyyətdə olmağın yoludur. Onlar artıq bizimlə olmayanlardan nəsə öyrənmək vasitəsidirlər.

Kitabxanalara dəstək olmaq lazımdır. Kitabxanalardan istifadə etmək, başqalarını onlardan istifadəyə təşviq etmək, onların bağlanmasına etiraz etmək.

Əgər siz kitabxanaların qədrini bilmirsinizsə, deməli, informasiyanın, mədəniyyətin və müdrikliyin qədrini bilmirsiniz. Siz keçmişin səsini boğur, gələcəyə ziyan vurursunuz.

Biz uşaqlarımıza ucadan, onları sevindirən kitablar oxumalıyıq. Onlarda kitaba maraq oyatmalıyıq. Özləri oxumağı öyrənsələr belə, bu vərdişi tərgitməməliyik. Ucadan oxumağı birlik anına, heç kimin telefonlara baxmadığı, dünya zövqlərinin bir kənara qoyulduğu zamana çevirməliyik.

Yazıçıların, xüsusilə də uşaqlar üçün yazanların oxucular qarşısında öhdəlikləri var. Biz oxucularımızı yormamalıyıq, elə etməliyik ki, onlar özləri növbəti səhifəni çevirmək istəsinlər. Həvəssiz oxuyanlar üçün ən yaxşı vasitə gözlərini ayıra bilməyəcəkləri əhvalatdır.

Biz moizə etməməli, leksiyalar oxumamalıyıq; quşlar öz balalarının ağzına əvvəlcədən çeynənilmiş qurdları qoyan kimi, biz də hazır həqiqətləri oxucularımızın boğazına dürtməməliyik. Və biz heç bir halda özümüz oxumaq istəmədiyimiz nəyisə uşaqlar üçün yazmamalıyıq.

Biz hamımız – uşaqlar və böyüklər, yazıçılar və oxucular xəyal qurmalıyıq. Özümüz üçün nəsə uydurmalıyıq. Heç kimin heç nəyi dəyişdirməyəcəyini, cəmiyyətin çox böyük, fərdin isə divardakı atomdan da, düyü tarlasındakı dəndən də kiçik olduğu dünyada yaşadığımızı düşünmək çox asandır. Ancaq bu, bir həqiqətdir ki, şəxsiyyətlər yenidən və yenidən dünyanı dəyişdirirlər, onlar gələcəyi yaradırlar və bunu edərkən hər şeyin başqa cür ola biləcəyini düşünürlər.

Ətrafınıza boylanın, mən ciddiyəm, bir anlıq dayanın və olduğunuz binaya nəzər yetirin. Mən hər kəsin unutduğu, ancaq göz qabağında olan bir şeyi göstərmək istəyirəm. Budur: divarlar da daxil olmaqla gördüyünüz hər şey bir vaxtlar düşünülüb, icad edilib. Kimsə bu nəticəyə gəlib ki, kətildə oturmaq, yerdə oturmaqdan daha rahat olacaq və kətili icad edib. Bu otaq və ondakı hər şey, binadakı, şəhərdəki hər şey insanların təkrar-təkrar nələrisə icad etdikləri üçün mövcuddur.

Biz hər şeyi gözəlləşdirməliyik. Dünyanı bizdən əvvəl olduğundan pis hala salmamalıyıq, okeanları məhv etməməliyik, problemlərimizi gələcək nəsillərə ötürməməliyik. Biz arxamızca yığışdırmalı və uşaqlarımızı axmaqcasına korladığımız, soyduğumuz və çirkinləşdirdiyimiz dünyada qoymamalıyıq.

Bir dəfə Albert Eynşteyndən soruşurlar ki, biz uşaqlarımızı daha ağıllı necə yetişdirə bilərik. Onun cavabı sadə və müdrik idi: "Əgər uşaqlarınızın ağıllı olmasını istəyirsinizsə, onlara nağıllar oxuyun. Əgər onların daha ağıllı olmasını istəyirsinizsə, onlara daha çox nağıl oxuyun". O, mütaliənin və təxəyyülün əhəmiyyətini anlayırdı. Ümid edirəm ki, biz övladlarımıza kitab oxuyacaqları, xəyal quracaqları və başa düşəcəkləri dünya verə biləcəyik.

***Tərcümə etdi:***
***Güney NAMAZOVA***

Cəmiyyət və Din
№ 02 (283) / FEVRAL 2015-ci il

# Afrikada albinos cinayətləri



Afrikanın orta-şərq bölgəsində yerləşən Tanzaniyada albinos doğulmaq qorxu filmində baş rol oyunçusu olmaq kimidir. Belə ki, bütpərəst inancları Afrikada hələ də öz yerini qoruyur. Vudu cadugərləri zəngin olmaq, qismət tapmaq, sağlamlığına qovuşmaq istəyən insanlara içərisində albinos əlləri, ayaqları, gözləri və ya baş dərisi olan sehrli içki təqdim edirlər. Burada bir albinosun bədən üzvləri 250 min dollara qədər yüksək qiymətə satılır.

Rəsmi göstəricilərə əsasən, 2007-ci ildə Tanzaniyada 53 albinos amansızca qətlə yetirilmiş və hissələrə bölünərək satılmışdır. Bəzi bölgələrdə isə albinos körpələrin doğulan kimi öldürüldüyü bildirilir.

Ümumiyyətlə, Tanzaniya Afrika qitəsində albinosların sayına görə birinci yerdədir. Burada 270 min albinos yaşayır. Onlar tez-tez zorakılığa və ayrı-seçkiliyə məruz qalır, cinayət və hücumların qurbanına çevrilirlər. Öldürülənlərin qız və oğlan olması isə fərq etmir. Xalq arasında belə bir inanc var ki, albinoslar Tanrı tərəfindən lənətlənmişdir. Bu səbəbdən çox vaxt məktəblərə da qəbul edilmirlər. Onlar davamlı olaraq çöldə günün altında qul kimi işlədiyi üçün dəri xərçənginə tutulma riski ilə qarşı-qarşıya qalırlar.

*Hazırladı: Ülviyyə ÖMƏROVA*

# Kanadada Bibliyaya andiçmə təcrübəsi aradan qaldırılır



Kanadanın Kvebek əyalətindəki məhkəmələrdə Bibliyaya andiçmə təcrübəsi aradan qaldırılır. "L'Observatoire de la Christianophobie"nın yazdığına görə, "sekulyarizm", "mədəni və dini müxtəliflik" naminə bu ənənənin kütləviliyinə son qoyulur.

Qərar mədəni fərqliliklər üzrə ."Buşar-Teylor" Komissiyasının xülasəsinə əsaslanır. Komissiyanın ekspertləri xristianların Bibliyaya andiçmə təklifini irəli sürüblər. Bu təcrübədən imtina etmək istəyənlər isə müqəddəs hesab etdiklərinə and içə bilərlər.

Həqiqətdə isə vəziyyət başqa cürdür. Bəzi hakimlər öz məhkəmələrində hətta xristianların da Bibliyaya and içməsinə icazə vermirlər.

# Tarixdə ilk dəfə dörd qadın brahman seçilib



İsveçrənin paytaxtı Berndəki Dinlər Evində hinduist icması 4 qadını brahman təyin edib. "kath.ch"ın yazdığına görə, yenilik Hindistan və Şri-Lankada dəstəklənməyib.

Qadın-brahmanlar ideyası 14 il əvvəl İsveçrəyə mühacirət etmiş, əslən Hindistandan olan brahman Tarmalinqama və onun tərəfdarlarına məxsusdur. Uzun illər hinduist müqəddəs mətnlərini araşdırdıqdan sonra onlar bu nəticəyə varıblar ki, müqəddəs kitablarda qadınların brahman vəzifəsinə keçməsi barədə heç bir əmr yoxdur. Bununla yanaşı, hinduizmdə bunu qadağan edən konkret göstəriş də mövcud deyil. Daha çox qadınla kişinin mahiyyətcə eyni olduğu barədə xatırlatmalara rast gəlmək mümkündür.

Tədqiqatçılar əmin olmaq üçün Şri-Lankaya səyahət ediblər. Yerli kahinlərlə görüşdükdən sonra doğru nəticəyə vardıqlarına əmin olublar və 4 qadını brahman təyin ediblər.

## Yadigar söz

*Mark Tven*
*(Amerika yazıçısı)*

**Şəfqət və mərhəmət elə bir dildir ki, onu karlar da eşidir, korlar da oxuya bilir.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 01 Mart | 06:07 | 07:16 | 12:57 | 16:28 | 18:44 | 20:01 |
| 02 Mart | 06:05 | 07:15 | 12:57 | 16:29 | 18:46 | 20:02 |
| 03 Mart | 06:04 | 07:13 | 12:57 | 16:30 | 18:47 | 20:03 |
| 04 Mart | 06:02 | 07:12 | 12:57 | 16:31 | 18:48 | 20:04 |
| 05 Mart | 06:01 | 07:10 | 12:56 | 16:32 | 18:49 | 20:05 |
| 06 Mart | 05:59 | 07:09 | 12:56 | 16:33 | 18:50 | 20:06 |
| 07 Mart | 05:58 | 07:07 | 12:56 | 16:33 | 18:51 | 20:07 |
| 08 Mart | 05:56 | 07:06 | 12:56 | 16:34 | 18:52 | 20:08 |
| 09 Mart | 05:55 | 07:04 | 12:56 | 16:35 | 18:53 | 20:10 |
| 10 Mart | 05:53 | 07:02 | 12:55 | 16:36 | 18:54 | 20:11 |
| 11 Mart | 05:52 | 07:01 | 12:55 | 16:37 | 18:55 | 20:12 |
| 12 Mart | 05:50 | 06:59 | 12:55 | 16:38 | 18:56 | 20:13 |
| 13 Mart | 05:48 | 06:58 | 12:55 | 16:38 | 18:57 | 20:14 |
| 14 Mart | 05:47 | 06:56 | 12:54 | 16:39 | 18:59 | 20:15 |
| 15 Mart | 05:45 | 06:54 | 12:54 | 16:40 | 19:00 | 20:16 |
| 16 Mart | 05:43 | 06:53 | 12:54 | 16:40 | 19:01 | 20:17 |
| 17 Mart | 05:42 | 06:51 | 12:53 | 16:41 | 19:02 | 20:19 |
| 18 Mart | 05:40 | 06:49 | 12:53 | 16:42 | 19:03 | 20:20 |
| 19 Mart | 05:38 | 06:48 | 12:53 | 16:43 | 19:04 | 20:21 |
| 20 Mart | 05:37 | 06:46 | 12:53 | 16:43 | 19:05 | 20:22 |
| 21 Mart | 05:35 | 06:45 | 12:52 | 16:44 | 19:06 | 20:23 |
| 22 Mart | 05:33 | 06:43 | 12:52 | 16:45 | 19:07 | 20:24 |
| 23 Mart | 05:32 | 06:41 | 12:52 | 16:45 | 19:08 | 20:26 |
| 24 Mart | 05:30 | 06:40 | 12:51 | 16:46 | 19:09 | 20:27 |
| 25 Mart | 05:28 | 06:38 | 12:51 | 16:47 | 19:10 | 20:28 |
| 26 Mart | 05:26 | 06:36 | 12:51 | 16:47 | 19:11 | 20:29 |
| 27 Mart | 05:25 | 06:35 | 12:50 | 16:48 | 19:12 | 20:30 |
| 28 Mart | 05:23 | 06:33 | 12:50 | 16:49 | 19:13 | 20:32 |
| 29 Mart | 06:21 | 07:31 | 13:50 | 17:49 | 20:14 | 21:33 |
| 30 Mart | 06:19 | 07:30 | 13:50 | 17:50 | 20:15 | 21:34 |
| 31 Mart | 06:17 | 07:28 | 13:49 | 17:50 | 20:16 | 21:35 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# İslandiyada ilk bütpərəst məbədi tikiləcək

İslandiyada Skandinaviya tanrıları Tora, Odin və Friqin şərəfinə ilk müasir məbəd tikiləcək. "InfoCatolica"-nın verdiyi məlumata görə, təşəbbüs ölkədə Skandinaviya bütpərəstliyinin artımını göstərir.

Məbəd "Asatruarfelagid" adlı müasir bütpərəst cəmiyyəti tərəfindən tikiləcək. Cəmiyyətin baş kahini Hilmar Orn Hilmarssondur. Paytaxt yaxınlığındakı təpələrdən birində inşa olunacaq məbədin binası dairəvi özül üzərində qurulacaq. Günbəzlərdən içəri günəş işığı düşəcək. Məbəddə toy və yas mərasimləri, o cümlədən doğum və həddi-buluğa çatma münasibətilə ayinlər təşkil olunacaq. Həmçinin bütpərəstlər heyvanları kəsmədən qurban ayini həyata keçirəcəklər.

Qeyd edək ki, 10 il ərzində "Asatruarfelagid" cəmiyyəti ardıcıllarının sayının 3 dəfə artıraraq 2400-ü keçib.

## NO COMMENT




Baş redaktor Sadiq Mirzəyev

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
Qaynar xətt: qaynar_xett@scwra.gov.az
E-mail: cemiyyet-din@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı (Bakı): (012) 437 31 14; Sumqayıt-Abşeron (Sumqayıt): (0186) 5 85 98; Şimal (Quba): (02333) 5 22 70; Şimal-Qərb (Zaqatala) (02422) 5 32 23; Şirvan (Ağdaş): (02023) 5 50 97; Qərb (Gəncə): (02225) 6 91 14; Qarabağ (Ağcabədi): (02127) 5 52 00; Cənub (Lənkəran): (02525) 5 39 84; Aran (Şirvan) (050) 588 07 82

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Həftəlik qəzet
Tiraj: 1200
Sifariş: 14

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894